Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası

# Əbədiyyətin məşəl aparanı - Qadın

**Tariximizdə, müasir dövrümüzdə Azərbaycan qadının qəhrəmanlığı, mübarizliyi mövzusunda məlumatları oxuculara çatdırmaq məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2021**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Lalə Qəmbərova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Əbədiyyətin məşəl aparanı - Qadın:**Tariximizdə, müasir dövrümüzdə Azərbaycan qadının qəhrəmanlığı, mübarizliyi mövzusunda məlumatları oxuculara çatdırmaq məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Ə. Aynurə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. L. Qəmbərova. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2021. – 66 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

# *Tərtibçidən*

*Qadın gülərsə, bu ıssız mühitimiz güləcək,*
*Sürüklənən bəşəriyyət qadınla yüksələcək...*

*H.Cavid*

Tanrı insan yaratdı. İnsanı ikiyə böldü – kişi yaratdı, qadın yaratdı. Onlara qaş qoydu, göz çəkdi, qəlb verdi, bir də amal verdi, məqsəd verdi. Kişini əzmkar yaratdı, məğrur yaratdı, dözümlü, ötkəm, cəsur yaratdı. Qadını incə yaratdı. Ona zəriflik verdi, nazlı yaratdı. Bol əllə verdi qadına mərhəməti, sevgini, qayğıkeşliyi, isməti, iffəti, bir də ən müqəddəs eşqi…

Qadınlar həyatın mənası, bəzəyi və əbədi gözəlliyidir. Ülvilik, zəriflik və gözəllik rəmzi olan qadın adı, ana adı ölkəmizdə həmişə uca tutulmuşdur. Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası, iradəsi və əzmi ilə milli - mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərmişdir.

Azərbaycan qadını ta qədimdən – nizə tutub, ox atdığı dövrdən var oluşunu sübut etmək üçün qayalara öz adını həkk etməyi bacardı. Gözünü yenicə açmış bu dünyaya "mən də varam" dedi. O gündən bu günə Azərbaycan qadını məğrurluğu, qəhrəmanlığı, mübarizliyi və analığı ilə tarixə öz naxışını vurmağı bacardı və bu gün də bacarır. Günümüzün qadınları hələ də şanlı tariximizə, nəğməli, bayatılı ədəbiyyatımıza, ən əsası həyatımıza naxış vurur, bəzək salırlar. Onlar, elm, siyasət, ədəbiyyat, tibb, ümumilikdə tərəqqi qalasına hər gün yeni bir kərpic qoyub, Azərbaycan adlı müqəddəs məmləkəti ucaya qaldırmaqdadırlar.

Cəmiyyətdə qadın dəyərinə, qadın müqəddəsliyinə, onun əvəzsiz və əzəmətli bir varlıq olduğuna diqqəti bir daha artırmaq məqsədi ilə bu vəsait tərtib edilmişdir. I hissə XX əsr türk

dünyasının böyük mütəfəkkiri Hüseyn Cavidin şeirindən bir misra ilə ***"Qadın gülərsə, bu ıssız mühitimiz güləcək, Sürüklənən bəşəriyyət qadınla yüksələcək..."*** adlanır və qadın dəyərlərindən bəhs edir. II hissədə isə ***"Adın şərəflidir sənin, ey qadın..."*** adlanır və kitabxanada təşkil olunan tədbirlərdən söhbət açılır. Cəmiyyətdə qadın dəyərinə, qadın müqəddəsliyinə diqqəti artırmaq məqsədilə kitabxanada kitab sərgisi keçirilə bilər. Sərgiyə müxtəlif başlıqlar verilir: "Əbədiyyətin məşəl aparanı-Qadın", "Qadın gülərsə, bu ıssız mühitimiz güləcək, Sürüklənən bəşəriyyət qadınla yüksələcək...", "Azərbaycan qadını ilklərdə", "Yaradıcı qadınlar", "Ədəbiyyata naxış vuran qadınlar", "Döyüşən qadınlar, Şəhid qadınlar, "Tariximizə iz qoyan qadınlar", "Qadın zərifliyi" , "Qadın varsa", "Qadın və siyasət", "Qadın və cəmiyyət", "Qadın, ailə və uşaq", "Adın şərəflidir sənin ey qadın, " və s.

# *Kitab sərgisi*



























## *Görkəmli şəxsiyyətlərin qadınlarla bağlı fikirləri:*

Qadına əsas şey həya, ismətdir
Bunlar qadın üçün böyük sərvətdir.

**Əhvədi Marağayi,**
*Azərbaycanlı məşhur alim və filosof şair*

Adın şərəflidir sənin ey qadın
Dahilər anası çağrılır adın.

**Səməd Vurğun,**
*Azərbaycanın ilk xalq şairi*

Bütün zəkamı, qabiliyyətimi, şöhrətimi, əsərlərimi axşam evə vaxtında gəlib gəlməyəcəyimlə maraqlanan bir qadın üçün fəda edə bilərəm.

**Corc Bernard Şou,**
*Böyük Britaniya yazıçısı, dramaturq,*

Qadınlar anlamaq üçün yox yaşanmaq üçündür. Yaşanacaq qadın tapdınızsa, anlamaq üçün vaxt itirməyin.

**Robin Şarma,**
*Şimali Amerika yazıçısı*

Qadın üzərinə yazı yazarkən qələmi göy qurşagına batırıb, mürəkkəbi kəpənək qanadlarının tozu ilə qurulayacaqsınız.

**Deni Didro,**
*Fransız yazıçısı*

Gözəl qadınlardan ağıllı olmalarını tələb edə bilmərik, amma ağıllı qadınların çirkin olmalarını əsla onlara bağışlamaq olmaz.

**Mistler,**

*Fransız yazarı*

Bir zamanlar kişinin üstün olduğuna inanırdım. Sonra evləndim və həyat yoldaşım bu inancımı məhv elədi.

**Cak Lemmon,**

*Amerikan aktyoru*

Qadın hər şeyi fitrədən bilir, kişi kitablardan öyrənir.

**Budda,**

*Buddizm dininin banisi*

Qadınları anlamaq üçün bir labirinti düz yola çevirmək lazımdır.

**Ziqmun Freyd,**

*psixoloq*

Hələ təsdiq olunmamış və qadın ruhuyla bağlı 30 il davam edən araşdırmalarıma qarşı, mənim də təsdiq etməyi bacarmadığım çox vacib bir sual var: Qadın nə istər?

**Ziqmun Freyd,**

*psixoloq*

Yaxşı bir qadın bir kişini təsirləndirər, ağıllı bir qadın onda maraq yaradar, gözəl bir qadın ovsunlayar, anlayışlı bir qadın isə ona sahib olar.

**Helen Rovland,**

*Amerika jurnalisti*

Sevən qadının fədakarlığı ölçüyə gəlmir.

**Alfons Dode,**
*Fransız dramaturq*

Qadınlar onları dinləməyi bacaran kişini varlı kişidən üstün tuturlar.

**Corc Herbetr,**
*ABŞ-ın 43-cü prezidenti*

Mən qadınlarda zahiri gözəlliyi deyil, ruhun gözəlliyini axtarıram.

**Uilyam Şekspir,**
*İngiltərə yazıçısı*

Qadının sizdən məsləhət istəməsi o demək deyil ki, sizin məsləhətinizə ehtiyacı var, o, sadəcə, özünə həmsöhbət axtarır.

**Onore de Balzak,**
*Fransız yazıçı*

Qadın zərif şüşə kimidir. Onun möhkəmliyini yoxlamağa çalışmayın, hər an sına bilər.

**Migel de Servantes,**
*İsban ədibi*

Hıçqıraraq ağlayan bir qadının göz yaşları, ağladan adamın başına gələcəklərinin altına atılacaq imzadır.

**Ç. Bukovski,**
*Amerika yazıçısı*

Qadın bilməyənə nəfs, bilənə nəfəs kimidir.

**Şəms Təbrizi,**
*Türk sufi alim və şair*

Gözəl bir qadın gözə, yaxşı bir qadın qəlbə xoş görünür. Birincisi brilyant, ikincisi xəzinədir

**Aleksandr Duma,**
*Fransız yazıçısı*

Ağlatdığın bir qadının göz yaşlarını ya o anda silərsən ya da o göz yaşlarında boğulmamaq üçün ömür boyu çırpınmaq məcburiyyətində qalarsan.

**Anton Pavloviç Çexov,**
*Rus yazıçısı*

"Tariximizdə, müasir dövrümüzdə Azərbaycan qadının qəhrəmanlığı, mübarizliyi" mövzusunda kitabxanada bir sıra tədbirlər; kitab müzakirəsi, konfrans, dəyirmi masa, oxucularla söhbət, inşa yazı müsabiqəsi, oxucu konfransı, rəsm və digər müsabiqələr, ədəbi-bədii gecə keçirilə bilər. Bu mövzu ilə əlaqədar kitabxanalarda keçirilə biləcək tədbirlərdən biri də *"Adın şərəflidir sənin ey qadın"* adlı **şeir müsabiqəsidir.** Bu məqsədlə kitabxanaçı öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Onlar müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq mövzu ilə bağlı fikirlərini dinləyicilərlə bölüşür.

*Kitabxanaçı söhbəti bitirdikdən sonra birinci iştirakçı dəyərli şair Əli Kərimin "Qaytar ana borcunu" adlı şeirini qiraətli bir şəkildə deməyə başlayır:*

…

Bir gözəl, bir sevimli oğul böyütdü ana.
O bəd, uğursuz günü – ərinin öldüyünü
Bildirmədi heç ona.
Kədəri dalğa-dalğa doldusa da ürəyə
Lakin nə saç yolaraq verdi əsən küləyə,
Nə şivən etdi ana.
Ürəyində ağlayıb, gülmək öyrətdi ona,
Dözərək davanın da dərdinə, bəlasına,
Öz boğazından kəsib yedirdi balasına…
Bir oğul böyütdü ki, gur, çatmaqaş, gensinə.
Bir oğul böyütdü ki, oğul deyirəm sənə:
Atlını atdan salıb küləklərlə ötüşür.
Baxışından qızların ürəyinə od düşür.
Bir oğul böyütdü ki, oğul məktəb bitirdi,
Oğul instituta qızıl medalla girdi.
Ana fikirləşdi ki: "Gör neçə aya getdi?!"
Ana yuxularında tez-tez Bakıya getdi,
Ana məktub yazdı ki: "Yanıltma gümanımı,
Pul nədir, pul deyirsən, göndərərəm canımı".
Nə zaman ki oğlunun getdiyi dörd il oldu,
Məktubları kəsildi, gəlmədi tətil oldu,
Ananı fikir aldı, ananın əsdi dizi
Ana müqəssir etdi, tramvayı, dənizi.
O yenə dözdü, durdu… O yolmadı saçını,
Səsləri qonşuları Əsmər, Çiçək bacını.
Yenə də azalmadı ürəkdən bala dərdi
Onlar oğul vermədi, onlar təsəlli verdi.
Məktub məktub dalınca axdı, Bakıya axdı,
Ana da məktubların dalınca baxdı, baxdı…
Məktublarsa Bakını dolandı, gəzdi, gəldi,
Məktublar əzik-üzük, məktublar bezdi gəldi,
Ana yenə də baxdı gah dolama yollara,

Gah da oğul boyuna həsrət qalan qollara.
Ana oğul böyütdü gur, çatmaqaş, gensinə,
Ana oğul böyütdü, özgəyə qismət oldu.
Ana fikirləşdi ki, mən neyləmişəm sənə?
Bu nə oğulluq oldu, bu nə məhəbbət oldu?
Oğul böyütdümü o büzmədodaq bir qıza?
Oğul böyütdümü o, min işvəyə, min naza?
Ana bilsəydi əgər böyütməzdi oğlunu,
Yox, bunu yandım dedim, yenə atmazdı onu.
Bir gözəl, bir sevimli oğul böyütdü ana,
Ürəyində ağlayıb gülmək öyrətdi ona.
Oğul! Nədir etdiyin bəs bu haq-say üçün?
Qaytar onun ömrünə neçə gecə, neçə gün!
Qaytar onun saçının qaralığını geri.
Qaytar o dilindəki şirin-şirin sözləri!
O sözü, o söhbəti gülüşü anan verib,
Ana dodaqlarından bala dodaqlarına.
İndi ondan gen gəzən oğul, ayaqlarına
Yerişi anan verib.
Qaytarsan o sözləri, sözsüz bir lal olarsan,
Qaytarsan o yerişi, yerindəcə qalarsan.
Qaytarsan o gülüşü hırıldamazsan daha
Qaytar, qaytar onları, qaytar, qoyma sabaha!
Sən ki dərd verdin, oğul, sənə gülüş verənə.
Oğul deməərəm sənə!
Deyirəm ki, o boyu, buxunu qaytar geri!
Qaytar onun borcunu,
Gülüşünü, adını, sözünü qaytar geri!
Qaytar ana borcunu,
O borc sənin özünsən, özünü qaytar geri!…

*İkinci iştirakçı səhnəyə yaxınlaşaraq Hüseyn Cavidin "Qız məktəbində" adlı şeirini deməyə başlayır.*

— Quzum, yavrum! Adın nədir?
— Gülbahar.
— Pəki, sənin anan, baban varmı?
— Var.
— Nasıl, zənginmidir baban?
— Əvət, zəngin, bəyzadə…
— Öylə isə, geydiyin geyim neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma…
— Var əfəndim, var… lakin
Müəllimən hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
— Çox doğru söz… Bu dünyada sənin ən çox sevdiyin
Kimdir, quzum, söylərmisən?
— Ən çox sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
— Sonra kimlər?
— Sonra onun göndərdiyi elçilər.
— Başqa sevdiklərin nasıl, yoxmu?
— Var…
— Kimdir onlar?
Anam, babam, müəllimən, bir də bütün insanlar…

*Üçüncü iştirakçı səhnəyə yaxınlaşıb Balaş Azəroğlunun "Ana" adlı şeirini söyləyir:*

Payız tək qucağı bəhərlə dolu,
Yay kimi qəzəbi, sevinci odlu.
Qışın qarından da daim üzü ağ,
Bahar günəşi tək mehriban, parlaq,
Bizim dünyamızın bəzəyi ana.
Bütün göyçəklərin göyçəyi ana.

Babam ömrü boyu hey cənnət gəzdi,
O cənnət sənsən.
Atam ölənədək səadət gəzdi,
Səadət sənsən.
Oğlum gözəllərdən məhəbbət gəzdi,
Məhəbbət sənsən.
Mən də bir zamanlar həqiqət gəzdim
İndi dərk etdim ki, həqiqət sənsən.
Həyatın ən böyük neməti ana.
Bütün insanlığın şöhrəti ana.

*Dördüncü iştirakçı səhnəyə yaxınlaşıb Ramiz Rövşənin "Qadınlar" adlı şeirini söyləyir:*

Ən gözəl qadınlar gündüzlər gülüb,
Gecələr gözləri yaşla dolurmuş.
Ən gözəl qadınlar sevgidən məhrum,
Ən gözəl qadınlar tənha olurmuş.

Taleyi əzəldən qara gətirir,
Ömrünün cavanlıq çağın itirir.
Həyatın ən gözəl bahar çağında

Qəlbində qəm əkir, kədər bitirir.

Ən gözəl qadınlar ən gözəl sevər,
Amma ki, sevilməz sevdiyi qədər.
Xəyanət acısı sızladar qəlbin,
Bu nəcür yazıdı, bu nəcür qədər!?

Ən gözəl qadını tanrı qısqanar,
Ən gözəl qadını tanrı sevməzmiş.
Ən gözəl qadına sahib olan kəs,
Heyif ki, qədrini heç vaxt bilməzmiş.

Ən gözəl qadınlar gündüzlər gülüb,
Gecələr gözləri yaşla dolurmuş.
Ən gözəl qadınlar sevgidən məhrum,
Ən gözəl qadınlar tənha olurmuş.

*Beşinci iştirakçı səhnəyə yaxınlaşıb Ramiz Rövşənin "Unutmuşam" adlı şeirini söyləyir:*

Mən dünyanın ən gözəl,
Adını unutmuşam.
Unutmaram dediyim,
Qadını unutmuşam..

Unutdum əllərini,
Gözlərini unutdum.
Qəlbimi əsir edən,
Sözlərini unutdum..

Mən ana laylasının,

Dilini unutmuşam.
Mən dünyanın ən gözəl
Gülünü unutmuşam..

Dadmadım öpüşünü,
Tutanmadım əlini.
Unutdum hərşeyini,
O məxməri telini..

Mən onu unutmazdım,
Unutdurdu özünü.
Unut məni demişdi,
Axır tutdum sözünü.

Ağrılarım can verir,
Dözümü unutmuşam.
Onu unudan gündən
Özümü unutmuşam..

Əgər unutmuşamsa,
Niyə ondan yazıram?!…

*Altıncı iştirakçı səhnəyə yaxınlaşıb Hüseyn Arifin "Analar" adlı şeirini söyləyir:*

Elə ki, balalar gəlir dünyaya,
O gündən hey ölçüb, biçir analar.
Mahnı da oxuyur, şeir də deyir
Bəstəkar analar, şair analar.
Dözür hər əzaba o bilə-bilə,
Yaşayır, sirrini salmadan dilə.
Vaxt olur, qaldırıb ağını belə

Şərbət əvəzinə içir analar.
Unudub illərin yorğunluğunu,
Həyatda dincliyi, evdə yuxunu,
Sevincin azını, qəmin çoxunu,
Yükün ağırını seçir analar.
Alnında zamanın açdığı qırış,
Başına qar tökür, qar ələyir qış.
Odun istisindən aralanmamış,
Suyun soyuğundan keçir analar.
Özüm də bilmirəm, Hüseyn, niyə
Başımın tüstüsü çəkilir göyə?
Torpaqmı anasız qalmasın deyə,
Torpağın qoynuna köçür analar?

*Növbəti iştirakçı səhnəyə yaxınlaşaraq Həqiqət Həqiqinin "Anamdan yazım" adlı şeirini deməyə başlayır.*

Qoy bu gün şeirimi anamdan yazım,
Yazım səs-sədası dağlara düşsün.
Qoy mizrab toxunsun, dillənsin sazım,
Nəğməli dodaqlar, dillər öpüşsün.

Yazım sığal çəkən titrək əlindən,
Yazım siyah telə düşən dənindən.
Qəlbini odlayır övlad itkisi,
Yazım ürəyinin duman çənindən.

Bu gün şeirimi, anamdan yazım,
Bütün analara hədiyyəm olsun.
Ana ürəyinin qəmi silinsin,
Gözəl qəlblərinə səadət dolsun.

*Növbəti iştirakçı  Görüşlü Məmmədovun "ana" adlı şeirini deməK üçün səhnəyə yan alır.*

Necə ki, var idin, dünya yar idi,
Fələk hiss elədi, bildi , ay ana!

Necə ki, var idin, dünya var idi,
Səninlə iç dünyam öldü, ay ana!

Necə ki, var idin , şaddı ürəklər,
Yaman mehribandı oğulun, qızın!
Sən getdin zəhəri daddı ürəklər,
Soyuğu, sazağı görməsin üzün!

Necə ki, var idin, quru nəfəsin,
Məlhəmdi bizlərə dosta , yoldaşa.
Apardın özünlə yaşam həvəsin,
Mehrimiz salmışıq qranit daşa!

Necə ki, var idin, o , kiçik otaq,
Bizlərə behiştdi, cənnətdi, ana!
İndisə torpaqdı yatdığın yataq,
Oğlun yox, qızın yox, dönsən hayana!

Necə ki, sağ idin sənə qaçardı,
Sənin tək oğlunun qoxuyanı yox!
Şirin kəlmələrin könlün açardı,
Nəzər duasını oxuyanı yox!

Necə ki, var idin nurlu gözlərin,
Yoluma mayakdı, işıqdı, ana!
Qanundu, yasaydı müdrik sözlərin,

Təvəkkül önündə uşaqdı, ana!

*Tədbirin sonunda öz qiraəti ilə fərqlənən iştirakçılar münsiflər tərəfindən mükafatlandırılır.*

*Kitabxanalarda bu mövzuda keçirilən digər tədbirlərdən biri də "Qadın və cəmiyyət"* adlı **dəyirmi masadır.** Tədbirdə alimlər, tarixçilər, günümüzün fəal, yaradıcı qadınları, folklorşünaslar, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edir. İlk olaraq kitabxanaçı hər kəsi salamladıqdan sonra mövzuya uyğun olaraq çıxışa başlayır:

*Kitabxanaçı:* Azərbaycan xalqının tarixində son 200 il ictimai-siyasi, mədəni dəyişikliklərin baş verməsi ilə yadda qalmışdır. Azərbaycan qadını öz hüquqları uğrunda mübarizəsini davam etdirmiş, təhsil, maarifçilik və xeyriyyəçilik kimi mənəvi, həm də mədəni irsi yaratmış, müasir dövrə çatmışdır. Xüsusilə XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan qadınları bir çox sahələrlə yanaşı, savadsızlığın aradan qaldırılmasına da dəstək vermişdilər. Qadın öz üzərinə götürdüyü sosial məsuliyyətin öhdəsindən həmişə layiqincə gəlmişdir. Azərbaycan qadını vətənə və ailə dəyərlərinə bağlıdır və biz bunu tariximizin bütün dövrlərində müşahidə edirik. Yüksək təhsilli qadın, kiçik dövlət sayılan ailənin başçısı, övladları üçün böyük dayaq və uğurların təminatçısıdır. Bu səbəbdən H.Z.Tağıyev, M.Muxtarov, H.Zərdabi, C.Məmmədquluzadə, Ə.Hüseynzadə və digərləri gələcək nəsilləri yetişdirən Azərbaycan gənc qızlarını və qadınlarını dünyəvi təhsilli görmək istəyirdilər.

*Kitabxanaçının dəyərli fikirlərindən sonra iştirakçılar qonaqları mövzuyla bağlı məlumatlandırır.*

***I İştirakçı:*** "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır".Bu fikirlər ümummilli liderimiz Heydər Əliyevə məxsusdur.Bu bir həqiqətdir ki, müasir dünyanın əsas problemindən biri gender

məsələləri və onun həlli istiqamətində həyata keçirilən işlərdir.Qadınlar təhsil almaq, işləmək, seçib-seçilmək və s. hüquqları uğrunda hər zaman ən müxtəlif formada mübarizə aparmışdır. Çox sevindirici haldır ki, qadınlar əsrlər boyu cəmiyyətin təsiri ilə yaranan, yaxud özləri üçün yaratdıqları psixoloji əngəlləri aşmaqdadırlar.

Azərbaycan qadınları özlərinin ictimai-siyasi fəallığı, vətənə sədaqəti, ailəyə bağlılığı və fədakarlığı sayəsində həm Şərq, həm də Qərb dünyası üçün unikal inkişaf yolu seçiblər. Belə ki, müsəlman Şərqində qızlar üçün ilk dünyəvi məktəb 119 il bundan qabaq məhz Bakıda yaradılmışdır. Azərbaycanda qadınlara seçib-seçilmək hüququnun verilməsindən 100 il ötür. Bu demokratik qərar ölkədə qadınların ictimai-siyasi, sosial-mədəni aktivliyinin artması üçün impuls, rolunu oynamışdır. Qadınlar bütün tarixi dövrlərdə fəal iştirak edərək cəmiyyətimizin inkişaf etməsinə öz töhfələrini vermişlər. Onların arasında görkəmli dövlət, elm, mədəniyyət xadimləri vardır.

Tarixə nəzər salsaq, görərik ki, dünya yarandığı gündən qadın aparıcı qüvvəyə çevrilmiş, zaman - zaman ölkəni idarə etmiş, böyük sərkərdə, diplomat, siyasətçi, deputat və s. olmuşdur. Qadın mübarizliyini, dəyanət və cəsarətini, siyasətinin qüdrətini, bacarığını və qüdrətini, bir sözlə, cəmiyyətdəki yerini bir daha sizlərə çatdırmaq üçün sizlərin qarşısındayıq.

***II İştirakçı:*** Azərbaycan Xalq Cümhuriyyətinədək Azərbaycan cəmiyyətində qadına münasibət XX əsrin əvvəllərində savadsızlıq və fanatik ənənələr səbəbindən ictimai və siyasi həyatdan təcrid olunmuş şəraitdə yaşamaları qadınların şəxsi həyatı üçün bir sıra çətinliklər yaratmışdı.

Azərbaycanın ziyalı elitası xalqı maarifləndirməyə, hüquq və vəzifələrini anlatmağa çalışır, "qadın bir şəxsiyyət kimi azad olmayınca xalqın problemləri həllolunmaz qalacaq!" ideyasını

irəli sürürdülər. Bu mövzuda daha çox H.Zərdabi, Ə.Ağayev, M.Şahtaxtlı, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ə.Nəzmi, M.Ə.Sabir, F.Köçərli, M.S.Ordubadi, C.Cabbarlı, M.Ə.Rəsulzadə və başqaları yazırdılar. Onlar fanatik dindarların hücumlarından çəkinməyərək diqqəti qadın problemlərinə də cəlb edə bilir, qızların zorla evləndirilməsini, kişilərin onlarla qul kimi rəftar etməsini tənqid edir, qadınlara kişilərlə bərabər təhsil verməyin zəruriliyini diqqətə çatdırırdılar.

XX əsrin başlanğıcında Azərbaycan qadınının azadlıq problemi ilk olaraq 1903-cü il martın 30-da Tiflisdə nəşrə başlayan "Şərqi-Rus" qəzetində qaldırıldı. Onun təsisçisi, Azərbaycan maarifçiliyinin görkəmli nümayəndəsi Məhəmməd ağa Şahtaxtlı müsəlman aləmində qadın azadlığı məsələlərindən bəhs edən məqalələr yazıb çap edirdi. Onun bu mövzudakı yazıları əsasən qadının azadlığını məhdudlaşdıran və ətraf aləmdən, ictimai həyatdan təcrid edən problemlərə həsr olunurdu.

XX əsrin ilk illərində Azərbaycan qadınlarının təhsil almaq imkanının məhdudluğuna qarşı atılmış mühüm addımlardan biri H.Z.Tağıyevin 1901-ci ilin oktyabr ayında Bakı Qız Məktəbini təsis etməsi oldu. Məktəbin təntənəli açılışı günü – 1901-ci il oktyabrın 7-də "Kaspi" qəzeti Qafqaz (Zaqafqaziya) müsəlmanlarının Şeyxülislamı Axund Əbdüssəlam Axundzadənin xeyir-duasını da dərc etmişdi. O, Məhəmməd peyğəmbərin "elm öyrənmək həm müsəlman kişiyə, həm də müsəlman qadınına vacibdir" sözlərini xüsusi vurğulamış, İslamın tarixindən, həkim, alim kimi şöhrət tapmış müsəlman qadınlarının həyatından misallar və sitatlar gətirmiş və demişdi: "Bu tarixi sitatlardan məqsədim budur ki, nə din, nə şəriət təhsil və tərbiyə sahəsində qadınların hüquqlarını məhdudlaşdırmır. Belə olsaydı, İslamda bu qədər şöhrətli müsəlman qadını yetişməzdi. Əgər bu vaxta qədər Zaqafqaziyada qızlara təhsil

verilməyibsə, bunun səbəbi təkcə məktəbin yoxluğu deyil, həm də kök atmış ziyanlı adətlərdir".

Bundan başqa, nədənsə XIX əsrin sonları və XX əsrin əvvəllərində yaşayıb-yaratmış Qafqaz Şeyxülislamı Axund Əhməd Hüseynzadə (Əli bəy Hüseynzadənin babası), Qafqaz müftisi Mirzə Hüseyn Əfəndi Qayıbov (Nigar xanım Şıxlinskayanın atası), görkəmli Azərbaycan maarifçisi Mirzə Əbdürrəhim Talıbzadə, Mir Məhəmməd Kərim Mircəfərzadə, Mirzə Əbu Turab Axundzadə kimi onlarla ilahiyyat xadimi və din alimlərimizin qadın problemi ilə mübarizə yönündəki fəaliyyətlərindən, nəşr edilmiş əsərlərindən, əfsuslar olsun ki, geniş şəkildə bəhs edilmir.

*II İştirakçı:* Maarifçi ziyalıların gərgin səyləri nəticəsində XX əsrin ikinci onilliyindən etibarən Azərbaycan qadınları ictimai-siyasi həyatda da görünməyə başladılar. Hətta onlar artıq yetişmiş problemlərini qadınların özləri tərəfindən ictimai rəyə çatdıran "İşıq" kimi qadın qəzetinin meydana çıxmasına nail oldular. "İşıq" qəzetinin ilk nömrəsi 1911-ci il yanvarın 22-də çap edilmişdir. 1912-ci ilədək 68 nömrəsi işıq üzü görmüş nəşrin redaktoru Xədicə Əlibəyova, naşiri isə onun həyat yoldaşı Mustafa bəy Əlibəyov olmuşdur. "İşıq" qəzeti maarifçi ideyalarla gündəmə gələrək o dövrün ziyalı qadınlarını ətrafına toplamışdı.

Bu, artıq XX əsrin əvvəllərində Azərbaycan qadınının ciddi ictimai qüvvəyə çevrilməsini təsdiq edən əlamətlərdən biridir. Burada və digər mətbuat orqanlarının səhifələrində qadın müəlliflərinin çıxışlarının getdikcə intensivləşməsi, müxtəlif mövqeli müəlliflərlə fikir mübadiləsində onların öz mövqelərini daha inamla ortaya qoymaları və s. bir daha göstərdi ki, XX əsrin əvvəllərində Azərbaycan mətbuatının qadın azadlığı uğrunda apardığı çətin mübarizəsi nəticəsiz qalmadı.

*IV İştirakçı:* Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadın siyasəti XX əsrin ilk illərindən etibarən ailə və qadın mövzusu ziyalılar tərəfindən geniş şəkildə müzakirə edilən ən aktual məsələlərdən olmuşdur. Bu problem fərqli əqidə sahibləri tərəfindən ən müxtəlif kontekstlərdə dəyərləndirilmişdir.

Tarixə nəzər salsaq görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişdir. Bununla belə, ölkəmizdə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu almış oldu.

Hələ 1918-ci il qurultayında M.Ə.Rəsulzadə müsəlman qadınının azad edilməsini müsəlman xalqlarının milli-azadlıq mübarizəsinin ən mühüm məsələlərindən biri kimi qiymətləndirdi. M.Ə.Rəsulzadə deyirdi:

"Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadın dustaqlıqda qala bilməz və qalmamalıdır". Bu fikirlər 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV bəndində bərabərhüquqluluq prinsipinin, seçmək və seçilmək hüququnun təsbit edilməsi ilə öz qanuni təsdiqini tapdı. Nəticədə, Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkə oldu.

Müsəlman dünyasında ilk dəfə olaraq kişilərlə bərabər, qadınlara seçkilərdə iştirak etmək – seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Bununla da, nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ Azərbaycanda verilmiş oldu. Bu Xalq Cümhuriyyəti hökumətinin demokratik,

hüquqi, dünyəvi dövlət yaratmaq əzmində olduğunu bütün dünyaya nümayiş etdirdi.

Beləliklə, 1918-ci il dekabrın 8-də işə başlayan Azərbaycan parlamentinə seçkilərdə də azərbaycanlı qadınlar iştirak etmişdir. Lakin, təəssüflər olsun ki, parlamentdə qadınlar təmsil olunmamışdı, çünki onlar rəhbər vəzifələrə öz namizədlərini irəli sürməkdən imtina etmişdilər.

*V İştirakçı:* Azərbaycanlı qadınların seçki hüquqlarının möhkəmləndirilməsi istiqamətində atılan növbəti addım bu hüquqların Azərbaycan Xalq Cümhuriyyətinin Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamədə təsbiti oldu. AXC-nin Müəssislər Məclisinə seçkilər çox vaxt və ciddi hazırlıq tələb edirdi, mürəkkəb siyasi vəziyyət isə hər gün yeni məsələlərin həllini irəli sürürdü. Buna baxmayaraq, parlament bir sıra hüquqi aktlar, o cümlədən "Müəssislər Məclisinə seçkilər haqqında" Qanun qəbul etdi. 1919-cu il iyulun 21-də qəbul edilən qanunda dövlətin hakimiyyət orqanlarına qadınların seçmək və seçilmək hüquqları bir daha öz təsdiqini tapdı. Əsasnamənin 1-ci fəslində deyilirdi: "Müəssislər Məclisi əhali tərəfindən cinsindən asılı olmayaraq və bərabər seçki hüququ əsasında, birbaşa və gizli səsvermə vasitəsilə, mütənasib nümayəndəlik əsasları təmin edilərək seçilən üzvlərdən ibarətdir". 2-ci fəsildə qeyd olunurdu ki, Müəssislər Məclisinə seçkilərdə "səsvermə gününədək 20 yaşı tamam olmuş hər iki cinsdən olan respublika vətəndaşları iştirak hüququna malikdirlər". Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qadınlara aktiv seçki hüququ vermək niyyətini bir daha təsdiqlədi.

M.B.Məmmədzadə yazırdı ki, "Qadınlar digər vətəndaşlarla bərabər vətəni və siyasi hüquq kəsb edirdilər ki, bu hal bütün Şərqdə deyil, Avropada belə tamamilə tətbiq edilmiş deyildi.

Azərbaycan milli partiyası bu qərar ilə nə qədər ülvi, bəşəri və mədəni qayələrlə doymuş olduğunu isbat etməkdədir".

*VI İştirakçı:* Qadınların sosial həyatda və ümumi ictimai fəaliyyətdə fəal iştirak etmələri və onların millətin işgüzar bir üzvü, məhsuldar və fayda verən bir zümrəsi olmaları uğrunda ziyalıların hələ bu vaxta qədər də çox təşəbbüsləri olmuşdu. Lakin ilk dəfə olaraq İstiqlal Bəyannaməsində bu mövzuya rəsmən toxunulması məsələsi həmin dövrün mətbuatında da müzakirə edilən aktual mövzulardan idi. Çünki, daha öncə bu yolda mübarizə aparmış Avropa mütəfəkkirləri də qadın məsələsini hər bir şeyin əsası, hətta cümhuriyyətin belə təməli hesab edirdilər.

Qadın problemi Cümhuriyyət parlamentinin də diqqətdə saxladığı aktual mövzulardan idi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 10 dekabr 1918-ci il tarixində keçirilmiş ikinci iclasında Azərbaycan qadınlarına İslam aləmində ilk dəfə olaraq seçilmək hüququ da rəsmi dövlət səviyyəsində verilmiş oldu.

İclasda qadınların kişilərlə bərabər bütün hüquq və azadlıqlarını təmin etmək üçün qəbul edilmiş qanunda aşağıdakılar göstərilmişdir:

– hər iki cins üçün 8 saatlıq iş günü (maddə 28);
– həftədə bir dəfə istirahət günü (maddə 29);
– 16 yaşına qədər olan məktəb yaşlı uşaqların işlədilməsinin qadağan edilməsi və 16 yaşından 18 yaşına qədər olan cavanların iş gününün 6 saatdan artıq olmaması (maddə 42);
– Qadınları səhhət və vücudlarına zərərli olan işlərdə çalışdırmaq qadağandır. Hamilə olan qadınlar doğuşdan 4 həftə əvvəl və 6 həftə sonra əmək haqları tam ödənməklə xidmətdən azad edilir (maddə 43);

Sahibkarların hesabına xəstələnmiş fəhlələrə müftə dərman verilməli və xəstə olduqları müddətdə əmək haqları onlara çatdırılmalıdır (maddə 50);
– Bu qanunlara əməl etməyən sahibkarlar cinayət məsuliyyətinə cəlb ediləcəklər.

Parlamentin ikinci iclasında "Hümmət" fraksiyasından Əkbər ağa Şeyxülislamov qadın hüquqlarından bəhs edərək deyirdi: "Millətimizin yarısını təşkil edən qadınlar qul sifətindədirlər. Biz onlara insan surətində baxmalıyıq. Millətin yarısı işləyib, yarısı işləməsə o millət çolaqdır. Üzərinə heç bir xeyir yetirə bilməz. Bu gün qadınlarımız gələcək övladlarımıza tərbiyə verməkdədirlər. Əgər onlar azadə olmasalar dövlət və vətənimizi müdafiə edən azad fikirli övlad dəxi yetirə bilməyib, özləri qul və əsir yaradarlar".

Demokratik müzakirələr və məqsədyönlü siyasət nəticəsində qadınların məşğulluq imkanlarının artırılması üçün Cümhuriyyət parlamentində qanun qəbul edilir, qadınların daha çox məşğul olduğu kustar sənayeni inkişaf etdirmək və genişləndirmək məqsədilə yerli sahələrə kömək göstərən kustar sənaye kursları təşkil edilir və vəsait ayrılırdı. İşsizliyin aradan qaldırılması və iqtisadiyyatın gücləndirilməsi məqsədilə bir sıra bölgələrdə toxuculuq və tikiş emalatxanası açılması barədə müxtəlif layihələr müzakirəyə çıxarılırdı.

Xalq Maarif Nazirliyinin yeni oğlan və qız məktəbləri və seminariyalarının açılmasına dair Azərbaycan Parlamentinə təqdim etdiyi qanun layihəsi əsasında 1919-cu ildə 4 kişi, 3 qadın kurslarının açılması qərara alınmış, qadın orta məktəblərində sinif müəllimi müavini vəzifəsinin təsis olunması barədə qanun layihəsi qəbul edilmişdi. Dövlətin təhsilə və yaradıcılıq sahələrinə belə ciddiyyətlə diqqət yetirməsi sayəsində ədəbi-mədəni mühitin formalaşmasında da qadınların fəallığı artmışdı.

Qadınların bu nailiyyətlərində hökümətlə bərabər, Azərbaycan ziyalılarının və milli mətbuatımızın rolu xüsusilə təqdirəlayiqdir.

Parlamentin 14 aprel 1919-cu il tarixli iclasında Nəsib bəy Yusifbəyli istiqlalın gələcəyinin maarifə bağlı olduğunu dilə gətirərək, milli maarifimiz və milli məktəbimizin tərəqqi etmədən bizim üçün qurtuluş və nicat ümidinin olmadığını vurğulamışdır. Bu istiqamətdə qadın hüquqlarının təminatına xüsusi diqqət yetirən hökumət təhsil siyasətində onlara da ayrıca qayğı ilə yanaşmış, qadınlar üçün fərdi gündüz kursları açılmış və cəmiyyətlə əlaqəli dərslər tərtib edilmişdi.

1918-1920-ci və daha sonrakı illərdə qadın hərəkatının güclənməsi daha ardıcıl qadın mətbuatının yaranmasını zəruri etdi. Azərbaycan hökuməti qadın hərəkatına istiqamət vermək, bu sahədə qadınlara kömək etmək məqsədilə əvvəlcə ayrı-ayrı səhifələr, sonra "Zəhmətkeş qadınların yolu" və "Qafqaziya zəhmətkeş qadınların yolu" adlı qəzetlərin nəşrini qərara almışdır. Bu dövrdə elmi publisistik və bədii yaradıcılıqla məşğul olan Ş.Əfəndizadə, Ş.Qaspiralı, Ş.Axundzadə, E.Yusifbəyli, Ü.Sadıqzadə kimi qadın ziyalıların məqalələrində, əsərlərində dövrün ictimai-siyasi, milli-mənəvi problemləri öz dolğun ifadəsini tapmışdır.

*VII İştirakçı:* Milli istiqlal hərəkatı, eləcə də, mövcud olduğu 23 ay ərzində Cümhuriyyəti ayaqda tutmaq, demokratik prinsipləri hakim mövqeyə qaldırmaq, xalq arasında elmi təbliğ etmək uğrunda bir çox tanınmış şəxsiyyətlər əzmlə çalışmışlar. Onların arasında ziyalı qadınlarımızın da öz töhfəsi olmuşdur.

Həm pedaqoji, həm də publisistik fəaliyyətlərinin kökündə maarifçilik missiyası duran bu xanımlar heç də dövrün kişilərindən geri qalmırdılar. Buna səbəb əslində Cümhuriyyət hakimiyyətinin qadın məsələsi və qadın hüquqları istiqamətində apardığı düzgün siyasət idi.

*VIII İştirakçı:*Dövrün ictimai, siyasi, publisistik və digər sahələrində ad qazanmış məhşur ziyalı xanımları – Şəfiqə xanım Əfəndizadə, Nigar xanım Şıxlinskaya, Xədicə Ağayeva, Sara Talışinskaya, Badusəba Köçərli, Fatma Topçubaşova, Mədinə xanım Qiyasbəyli, İsmət Aşurbəyova, Pəri Topçubaşova, Süreyya Axundova, Hənifə Zərdabi, Liza xanım Muxtarova, Əminə xanım Ağayeva, Mina xanım Aslanova, Nigar xanım Vəlibəyova, Gövhər xanım Vəlibəyova, Gövhər xanım Qayıbova və digərləri öz adlarını tarixə yazdırmışdır.

Bir sözlə, türkçülükdən mərdlik, ərənlik almış Azərbaycan qadını Azərbaycan Xalq Cümhuriyyəti dövründə haqqı olan siyasi hüquqlara qovuşmuş oldu.

*Qarabağ müharibəsində, eləcə də 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş Azərbaycan qadınlarının qəhrəmanlığını, mübarizliyini oxuculara çatdırmaq məqsədi ilə kitabxanada keçirilən tədbirlərdən biri də oxucularla söhbətdir. Tədbirə kitabxanaçı ilə yanaşı qadın şairlər, yazıçılar və müəllimələrin də çıxışlarına yer verilir. Onlar iştirakçı və qonaq qismində tədbirə dəvət olunurlar. Tədbir* ***"Döyüşən qadınlar, Şəhid qadınlar"*** *adını daşıyır.*

*Kitabxanaçı:* Müstəqilliyini yenidən elan etmiş Azərbaycan Respublikası ilk günlərdən münasibətlərini–dövlət sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü, mübahisəli məsələlərdən dinc yolla nizama salınması, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qurdu.

Helsinki müqaviləsinin yekun Aktında irəli sürülən hüquqi öhdəlikləri yerinə yetirməyə çalışırdı. Bununla belə, iqtidar dünyanın böyük dövlətlərinin Cənubi Qafqazla, xüsusən Azərbaycanla bağlı maraqlarını təmin edə biləcək tarazlı siyasət yeridə bilmədiyindən Dağlıq Qarabağ probleminin vaxtında həlli üçün ona lazımı dəstək verilməlidir. Bu səbəbdən müharibənin qarşısını almaq mümkün olmadı.

Beynəlxalq birliyin, xüsusən böyük dövlətlərin oyuncaq "Dağlıq Qarabağ Respublikası" nın elan edilməsinə loyal münasibəti erməni separatçılarını daha da şirnikləşdirdi. Onlar hərbi əməliyyatları genişləndirdilər.

1991-ci ilin sonunda Rusiya ilə Ermənistan arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" bağlanması Rusiya Dağlıq Qarabağ ermənilərini Azərbaycana qarşı açıq-saçıq silahlandırmaq imkanı verdi.

Ali Sovetin "Azərbaycanın milli özünümüdafiə qüvvələri haqqında" qanununa əsasən 1991-ci ilin noyabrında 22 sərhədyanı bölgədə yerli əhalidən könüllü ərazi özünümüdafiə batalyonları yaradıldı.

1991-ci il oktyabrın 9-da Ali Sovet Azərbaycanın milli özünümüdafiə qüvvələri haqqında" qanun qəbul etmişdir. Könüllülük əsasında yaranan hərbi hissələrdə kifayət qədər nizam-intizam yox idi.

Təcrübəli hərbçilər az idi. Hərbi hissələrin bəziləri müəyyən siyasi qüvvələrin maraqlarına tabe edilmişdir, onlara pozucu ünsürlər yol tapa bilmişdi.

Döyüş qabiliyyətinə malik olmayan, lazımı silah və sursatla təmin olunmayan və müdafiə taktikası seçməyə məcbur olan özünümüdafiə batalyonları rus və erməni silahlı qüvvələrinin hücumlarının qarşısını ala bilmirdilər.

Belə bir şəraitdə erməni işğalçıları rusların köməyi ilə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan yerlərinə hücumu genişləndirib 1992-ci ilin yanvarında Kərkicahan, fevralında Malıbəyli, Quşçular kəndlərini ələ keçirib Xocalını və Şuşanı mühasirəyə almağa başladılar. Yeni yaradılmağa başlayan başlayan hərbi hissələrin Şuşanı mühasirədən çıxarmaq məqsədi ilə apardığı "Daşaltı" əməliyyatı uğursuz oldu.

Qeyri-bərabər döyüşdə düşmən hərbi hissələri Qarabağlı kəndini ələ keçirib 150-yə yaxın müdafiəçini və kənd sakinlərini

vəhşicəsinə qətlə yetirərək, meyitləri silos quyularına atdılar. Fevralın 25-də axşam saat 9-da erməni silahlı qüvvələri Xankəndindəki Rusiyaya məxsus 366-cı mexanikləşdirilmiş atıcı alay və muzdlu quldurlar Xocalıya hücum etdilər.

XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımı törədildi. Cəmi 150 nəfər müdafiəçisi olan Xocalı düşmənlə üz-üzə qaldı. Xocalı soyqırımında 613 nəfər öldürüldü, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 6 ailə bütövlüklə məhv edildi, şəhər yandırıldı…

1991-ci ildən, vətəni qorumaq uğrunda yaradılan könüllü dəstələrinə hər yaşdan ölkə vətəndaşları qatıldı. Hər kəs bir nəfər kimi yaralı Azərbaycanımıza məlhəm olmaq üçün cəbhəyə axışdı. Ölkənin igid oğulları ilə bərabər qeyrətli vətən qızları da könüllü dəstələrə qatılmağa başladılar. Minlərlə Azərbaycanın mübariz qız-qadınları əlinə silah götürməli oldular. Yüzlərlə qadınımız ön cəbhədə vuruşdu. Rəşadətlə mübarizə apardı, bəzən düşmən gülləsinin hədəfinə belə çevrildilər.

***I Qonaq:*** *"Milli Qəhrəman adına layiq görülən ilk döyüşçü qız-Gülbar" adlı çıxışına keçid alır.* Təmiz qəlbli, xoş niyyətli, ismətli bir qız kimi ən yüksək ada, ən tərifli sözə layiq olan Gülbar etdiyi qəhrəmanlıqlarla Milli Qəhrəmanlarımızdan biridir. Gülbar arada öz çiyindaşlarına uşaqlıq xatirələrindən danışırdı. Xatirələrindən müəyyən etmək olurmuş onun qəhraman olacağı…

"Mən dördüncü sinifdə oxuyarkən atam budaqdakı quşu mənə göstərib dedi: "Nişan al, at, görüm nəyə qadirsən". Atdım, özü də düz gözündən. Atam heyrətlə üzümə baxıb başını buladı. Yəqin sevinirdilər ki, 3 qardaşa yeganə bacıyam.

Milli Ordu sıralarına könüllü olaraq ərizə yazıb daxil olanda atam söz deməyi artıq saydı. Onsuz da fikrindən daşındıra bilməyəcəyəm onu, – dedi. Həm də mənə inanırdı. Qardaşım Kərimlə birgə vuruşurduq. O sıravi idi, mən isə rabitə xidmətinin rəisi. Amma hücum zamanı hər şeyi unudurdum, bir də görürdüm qarşıda yalnız erməni səngəridir, vəssalam".

Döyüş dostları bu gün də onun şücaətindən, əzmindən ağız dolusu danışırdılar. Deyirlər Gülbar düşmən mövqeyinin koordinatlarını elə dəqiqliklə təyin edirdi ki, bir həmləmiz də boşa getmirdi. Onun sayəsində düşmənin neçə-neçə hərbi texnikası məhv edilmişdir. Hələ Məngələnata yüksəkliyi uğrunda döyüşlərdə göstərdiyi şücaətləri demirik. Kimi ən çətin nöqtələrə göndərirdilər, çatanda Gülbarımı orada görürdü. Onun hər bir döyüş yoldaşı artıq bu hala öyrəşmişdi. Onun şücaəti hər an görünürdü. İndi bütün bunlar xatirəyə dönüb.

O, insanları bütün ali xüsusiyyəti ilə birgə qəbul edirdi. Gülbar yaxşı bilirdi ki, əlinə silah alıb torpaq qeyrəti çəkmək kişi işidir. Daha doğrusu, belə ağır və cəsarət tələb edən işin öhdəsindən fiziki cəhətdən sağlam, qüvvətli, şir ürəkli insanlar gələ bilərlər. O, özündə bu gücü, qüdrəti hiss edirdi. Vətənin ağır günündə öz mallarını, şəxsi istəklərini, arzularını bir kənara qoyub, bəlkə də üstündən xətt çəkib vətənimizi qorumağı üstün tutub, ən üzdə arzu bildi. O, bu çətin günlərdə harada olmağı, nə etməyi çoxlarından yaxşı bilirdi, yaxşı duyurdu. Elə buna görə də, o, olmalı gərəkən yerdə idi. Gülbar əməlləri ilə həqiqətən də Vətənə, valideynlərinə layiqli övlad olduğunu sübut etdi.

Hərbin dəmir intizamına, ağırlıqlarına, baxmayaraq, zərifliyini, incəliyini, səmimiyyətini sona qədər qoruyub saxlaya bilmişdi Gülbar.

O, 28 illik ömründə həyatın hər üzünu görmüşdü. Gülbar bir Azərbaycan qızı idi. O da bir çoxları kimi bir igidə ömür- gün

yoldaşı, neçə şirin balalara ana olacaqdı. Ailə quracaq, xoşbəxt olacaqdı…

Heyif ki… Daşına, kəsəyinə qəlbən bağlandığın, hər qarışına bələd olduğun torpağı qorumaqdan ötrü qeyrət və bacarıq da bəc edərmiş. O, qəhrəmanlıqla vuruşduğu bir il üç ay ərzində bütün bunları sübuta yetirdi. Gülbar sağlığında Milli Qəhrəman adına layiq görülən ilk döyüşçü qız idi.

Gülbar Heydər qızı Heydərova 1965-ci ildə Füzuli rayonunun Qaraməmmədli kəndində dünyaya göz açmışdı. Neft-kimya texnikumunu bitirib doğma rayonunda hərbiləşdirilmiş mübarizə dəstəsində rabitəçi işləyirdi. Torpaqlarımıza erməni təcavüzü ilə əlaqədar 1992-ci ilin may ayının 9-dan könüllü olaraq Milli Orduya yazıldı. Müsahibələrinin birində ürəyinin onu gərək olduğu yerə-atasının uyuduğu müqəddəs torpağı qorumağa səsləməsini deyirdi:

– Ötən il (1992) fevralın 13-də ermənilərin Qacar kəndinə ilk güclü hücumu oldu. Kəndimiz Qacara yaxın olduğundan yanan evlərin ərşə qalxan tüstüsünü açıq-aydın görürdük. 13 saat döyüş getdi. Mən əliyalın kəndin köməyinə getmək istəyirdim. Gözlərim önündə torpaqlarımız əldən gedir… Vicdanı olan kəs bu biabırçılığa dözə bilməzdi. Mayın 9-da könüllü olaraq Milli Orduya yazıldım…

Ülvi Vətən sevgisi bu çəlimsiz qıza qibtə ediləcək güc, cəsarət, yenilməzlik bəxş etmişdi. Qəhrəmancasına vuruşduğu bir il üç ay ərzində 20-dən çox hərbi əməliyyatda, xüsusilə Məngələnata yüksəkliyinin azad edilməsində böyük fədakarlıqlar göstərdi. Rabitə xidmətinin rəisi Leytenant Gülbar Heydərovanın döyüş əməliyyatları zamanı verdiyi dəqiq koordinatlar nəticəsində düşmən mövqelərinin külü göyə sovrulurdu. Neçə-neçə silahdaşını yaralı vəziyyətdə döyüş meydanından çıxarıb hospitala çatdırmışdı.

1993-cü ilin iyul ayının 28-də Füzuli torpağı Sarabəyim anayla birlikdə göynəyə-göynəyə göz yaşı axıtdı, Gülbarsız qaldı. Bir ay tamam olmamış, 23 avqustda isə rayonumuz işğal edildi.

Gülbar Azərbaycan qadınının əsrlər boyu qazandığı, qoruyub bu günədək çatdırdığı mərdliyi, məğrurluğu 28 illik ömür payında mətanətlə yaşatdı. Gülbar Nigarlar, Həcərlər, Məhsətilər, Burla Xatunlar nəslindən olduğunu bir daha sübut edə bildi. Gülbar çoxlarının arzuladığı, lakin çata bilmədiyi xoşbəxtlik zirvəsini fəth etdi.

Məsələsi, əqidəsi, ən əsası Vətəni yolunda şəhid olanlar, qəhrəmana çevrilənlər xoşbəxtdirlər.

Xalq sizlərin sonuncu və əbədi mənziliniz olan Şəhidlər Xiyabanına çox gələcək.

Biz sizlərə borcluyuq…

***II Qonaq:*** *"Şəhidlər Xiyabanında dəfn olunan ilk döyüşçü qadın- Rəhilə Orucova" adlı çıxışına keçid alır.*

13 may 1992-ci il xalqımızın igid qızı Rəhilə Orucovanın Bakının müqəddəs Şəhidlər Xiyabanında əbədi yuxuya daldığı gündür. O vaxta qədər Rəhiləni çox az insan tanıyırdı. Həmin gündən etibarən isə Rəhilənin adı dildən-dilə, eldən- elə gəzdi, İnsanlar dəstə-dəstə onun məzarı qarşısında baş əyib ziyarət edirlər. Rəhilə Şəhidlər Xiyabanında dəfn olunan ilk döyüşçü qadındır. İxtisasca tibb bacısı idi. Vətən, torpaq qeyrəti onu ön cəbhəyə çəkib aparmışdı. Əlinə silah alıb düşmənlə üzbəüz döyüşə atılmışdır. Neçə - neçə yaralı döyüşçümüzü ölümün ağzından alıb xilas etmiş, neçə- neçə erməni quldurunu gülləyə hədəf etmişdir.

Orucova Rəhilə Əli qızı 1965-ci il sentyabrın 25-də Göyçə mahalında anadan olmuşdur. Rəhilə Orucova 1973-cü ildən 1978-ci ilədək Ağstafa rayonunda oxumuş, oranı bitirdikdən sonra 1979-cu ildən 1981-ci ilədək təhsilini 109 nömrəli məktəbdə davam etdirmişdir.

1981-ci ildə 1 nömrəli Bakı Tibb məktəbinə daxil olmuş, texnikomu bitirdikdən sonra əvvəlcə Bakı təcili yardım xəstəxanasının reanimasiya şöbəsində, sonra isə Qədirli adına xəstəxanada fəaliyyətə başlamışdır. Rəhilə Orucova Milli Orduya könüllü yazılmışdır. Ön cəbhədə həm könüllü tibb bacısı kimi, həm də sıravi bir əsgər kimi vuruşmuşdu.

1992-ci il mayın 11-də Ağdərə rayonunun Mərguşəvan kəndi uğrunda döyüşdə qəhrəmancasına həlak olmuşdur. Mayın 13-də Şəhidlər xiyabanında dəfn olunmuşdur.

1992-ci il sentyabr ayında 109 nömrəli məktəbə şəhid Rəhilə Orucovanın adı verilmişdir və büstü qoyulmuşdur.

Cəbhə yoldaşları və dostlarının dediyinə görə o hələ sağlığında tez – tez Şəhidlər Xiyabanına gedər, şəhidlərimizin məzarlarını ziyarət edər, şəhid jurnalist Salatın Əsgərovanın məzarı qarşısında dayanaraq "heyif deyil bu dünyada Salatın kimi ölləsən"– deyər belə qəhrəman ölümə həsəd aparamış.

Yəqin ki, o vaxtlar Rəhilənin ağlına belə gəlməzdi ki, özü də Salatın Əsgərovanın məzarının bir neçə addımlığında qəhrəmanlıq göstərərək şəhid kimi, əbədi olaraq uyuyacaqdır.

Məzarın nurla dolsun,şəhid bacımız, xalqımızın qeyrətli Şəhid qızı Rəhilə !

***III Qonaq*** *"Tarixin özünə zəfər çalan Azərbaycan qadını"adlı çıxışında Azərbaycan qadının 1941-1945 -ci illər Böyük Vətən müharibəsində şücaətindən söhbət açır:*

Azərbaycan qadınları müharibə və quruculuq illərində fədakarlıq nümunəsini göstərib on cəbhədə düşmənə qənim, arxada vətənə dayaq olublar.

1941-1945-ci illər müharibəsində qadınların ordu sıralarında qulluq etmələri könüllülük xarakteri daşımışdır. Bu sahədə qadın tibb bacılarının döyüş meydanlarında yaralılara təcili yardımları xüsusi əhəmiyyət kəsb etmişdir.

Ümumiyyətlə, yaşadığı tarixi dövrdən onun sosial-iqtisadi vəziyyətlərindən, coğrafi məkanından, irqindən, dilindən, dinindən asılı olmayaraq, qadın bəşəriyyətin inkişafının bütün mərhələlərində özünəməxsus aparıcı qüvvə kimi tanınmışdır. Onlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər.

Azərbaycan qadın və qızları 1941-1945-ci illər müharibəsində xüsüsi dəyanətləri ilə seçilmişlər, 10 min nəfərdən çox azərbaycanlı qızı cəbhəyə getmişdir. Onlar döyüş təyyarələrini, tankları idarə etmiş pulemyotçu və topçu, avtomatçı və snayper, tibb işçisi, rabitəçi olmuşlar.

Azərbaycan qadınları ön və arxa cəbhədə fədakarlıq, hünər, qəhrəmanlıq göstərmişlər. Arxa cəbhədə qadınlar neft buruqlarında, dəmir yollarında, kənd təsərrüfatı texnikası, traktor, kombayn sükanında hospitallarda və başqa sahələrdə də kişiləri əvəz etmişlər.

İlk qadın təyyarəçimiz, milli aviasiyamızın ilk "göyərçinləri" – Leyla Məmmədbəyova 1930-1931-ci illərdə Bakı Aviasiya Məktəbində təyyarəçi-təlimatçı ixtisasına yiyələnmiş, Bakı aeroklubunun yaradıcılarından və müəllimlərindən biri olmuşdur. O, təkcə Azərbaycan tarixində deyil, Qafqazda, Cənubi Avropa və Yaxın Şərqdə ilk qadın təyyarəçi, aviasiya mayoru rütbəsinə yiyələnmişdir.

1932-ci ildə Moskva Mərkəzi Aviasiya Məktəbində təhsilini davam etdirən Leyla 1933-cü ildə Moskvanın Tuşino aerodromunda "U-2" təyyarəsindən paraşütlə atılaraq Nina Kamnevadan sonra SSRİ - nin ikinci qadın paraşütçüsü adına sahib olmuşdur.

Sonralar hərbçi peşəsini Bakı aeroklubunda müəllim kimi davam etdirmişdir. Yetkinlik yaşına çatmamış olduğundan Məmmədbəyovanı döyüşə aparmayıblar. O, müharibə illərində yüzlərlə desant və 4 min paraşütçü hazırlayaraq cəbhəyə

yollayıb. Yetirmələri arasında iki nəfər Sovet İttifaqı Qəhrəmanı adını alan da vardır.

Sona Nurayeva da ilk təyyarəçi qadın olub. O, Bakı təyyarə klubunda yetişib, 1936 - cı ildə Batays təyyarəçilik məktəbini bitirib, Azərbaycan Mülki Aviasiya idarəsinin təyyarəçisi olub.1941-1945- ci illər müharibəsində iştirak etmiş, döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə görə 1944-cü ildə “Şərəf nişanı” ordeni ilə təltif olunub. Müharibədən sonrakı həyatını Azərbaycan mülki aviasiyasına həsr etmişdir.

Züleyxa Seyidməmmədova ilk azərbaycanlı qadın hərbi təyyarəçi kimi adını tarixə yazmışdır. O, 1934-1938 - ci illərdə Azərbaycan Sənaye İnstitutunda təhsil almaqla yanaşı, Bakı aeroklubunda ilkin uçuş vərdişləri qazanmışdır. 1941-ci ildə isə Jukovski adına Moskva Hərbi-Hava Akademiyasını bitirib.

1941-1945- ci illər müharibəsində düşmənin ” gecə əcinnələri” adlandırdığı qırıcı qadın aviapolkunun komandir müavini olmuş, 500 – ə qədər döyüş əməliyyatlarında iştirak etmişdir. İkinci dərəcəli “Böyük Vətən Müharibəsi” ordeni və “Almaniya üzərində qələbəyə görə” medalı ilə təltif olunmuşdur. Ordudan Aviasiya kapitanı rütbəsi ilə tərxis olunan Z. Seyidməmmədova ömrünün qalan hissəsini doğma Azərbaycanın inkişafına həsr etmişdir.

Cəsur qadın təyyarəçilərimiz haqqında danışarkən Ziba Dadaşovanın və Zərifə Qasımovanın adlarını çəkməmək olmur. 1941-1945- ci illər müharibəsində Bakını mühafizə edən xüsusi aviadəstənin tərkibində bu qızlar da şücaət göstərmişlər. Dürrə Məmmədova 1941-1945- ci illər müharibəsi iştirakçısı, baş leytenant, SSRİ tibbi xidməti əlaçısı olmuşdur.1981-ci ildə Azərbaycan SSRİ əməkdar səhiyyə işçisi adını almışdır. Müharibənin ilk günlərindən könüllü cəbhəyə gedib, Qara Dəniz Donanmasında hərbi hospitalda çalışıb, Novorosssiysk uğrunda gedən döyüşlərdə 28-ci ordunun tərkibində tibbi işçi kimi iştirak

edib.1948-ci ildə ordudan tərxis olunub, 1949-1951-ci illərdə Leninqradda (Sankt-Peterburqda), 1951-1961-ci illərdə Uzaq Şərqdə hərbi hospitallarda işləyib, orden və medallarla təltif olunub.

Aliyə Rüstəmova 1941-1945- ci illər müharibəsi qəhrəmanı, partizan hərəkatının iştirakçısı olub.1935-ci ildə 1-ci Leninqrad Tibb İnstitutunu bitirdikdən sonra Özbəkistanda işləyib. 1938-ci ildən isə o, Moskvada Həkimləri Təkmilləşdirmə İnstitutunda çalışıb. Müharibənin ilk günlərindən Moskva, sonra Smolensk yaxınlığında fəaliyyət göstərən "Deduşka" partizan dəstələrinə qoşulan Aliyə Rüstəmbəyova tibb-sanitar batalyonunun rəisi işləyib.

Müharibə illərində digər bir qadın qəhrəmanımız – gəmi kapitanı Şövkət Səlimova 1940 - cı ildə Bakı Dənizçilik Məktəbini bitirib. O, Xəzər Dəniz Gəmiçiliyi idarəsində gəmi kapitanının müavini və daha sonra gəmi kapitanı vəzifəsində çalışıb. Şövkət Səlimova müharibə illərində gəmi ilə neft, silah daşınmasında böyük əməyi olan şəxslərdəndir. Müharibə illərində dünyada iki gəmi qadın kapitanından biri olub. "Qırmızı Ulduz" və 2-ci dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif edilib.

Dəhşətli günlərdən illər keçsə də, ölüm saçan güllələrdən həyatını xilas edə bilmiş və bu gün aramızda olan qadınlarımızdan Fatma Səttarova, Tacirə Qazıyeva, Mariya Rzayeva, Adilə Ağakişiyeva, İrina Qədimova, Vera İbrahimovanın adlarını çəkə bilərik.

Fatma Səttarova 20 yaşında tibb bacısı olaraq Azərbaycan oğulları ilə bərabər könüllü cəbhəyə getmişdir. Müxtəlif hospitallarda işləyib, həmçinin Leninqrad blokadasında və Moskva ətrafı döyüşlərdə olmuşdur. Müharibə qurtardıqdan sonra vətənə qayıdıb ali təhsil almış və dövlət idarəsində müxtəlif vəzifələrdə çalışmışdır.

Mariya Rzayeva 18 yaşında cəbhəyə könüllü getmiş, döyüşlərdə iştirak etmişdir. Stalinqrad (indiki Volqoqrad) uğrunda döyüşlərdə Mariya Rzayevanın eşitmə və görmə qabiliyyəti yüksək olduğundan, zenit artilleriyası üçün kəşfiyyatçı işinə cəlb etmişlər.

Azərbaycan anaları müharibədə tarixi qələbənin qazanılmasında 7000 mindən çox igid oğullarını, qeyrətli qızlarını düşmənə qarşı döyüşə yola salmışdır. Müharibədə Azərbaycan oğul və qızlarının faşizmin məhv edilməsində göstərdikləri qəhrəmanlıqlar onların həyat tərzi və fəaliyyəti gənclərimiz üçün əsl nümunə, vətənpərvərlik məktəbidir.

Müharibə illərində Azərbaycanın kənd təsərrüfatının idarə edilməsində, bol məhsul istehsal olunmasında da zəhmətkeş qadınlarımızın əməyi danılmazdır.

Müharibə illərində yazıçı və şairlərimizlə bərabər Respublikanın incəsənət işçiləri, o cümlədən sevimli müğənnilərimiz Şövkət Ələkbərova, Rəhilə Həsənova, Elmira Rəhimova, Sara Qədimova, Rübabə Muradova, Tükəzban İsmayılova, Fatma Mehrəliyeva, Leyla Bədirbəyli, Həqiqət Rzayeva, Nərminə Məmmədova, bəstəkar Şəfiqə Axundova və s. cəbhə bölgəsinə gedərək, əsgərlər qarşısında konsertlər vermiş və onları mənəvi cəhətdən ruhlandırmışlar.

Müharibədən sonrakı quruculuq illərində də qadınlarımız öz bilik və bacarıqlarını Azərbaycan dövlətinin inkişafına sərf etmişlər. Tibb elmləri doktoru akademik Zərifə Əliyeva, tibb elmləri doktoru Adilə Namazova, Azərbaycan Dövlət Tibb Universitetinin keçmiş rektoru professor Zəhra Quliyeva, tibb elmləri doktoru Zəkiyyə İsmayılova, yazıçı Əzizə Cəfərzadə, dövlət və ictimai xadim Zemfira Verdiyeva, tarixçi alim akademik Nailə Vəlixanlı, Sosialist Əməyi Qəhrəmanı Şamama Əliyeva, Azərbaycan Respublikasının Ali Məhkəməsinin keçmiş sədri Südabə Həsənova, Respublikanın Əməkdar

hüquqşünası Əfşən Əfəndiyeva, Şəfiqə Əliyeva, Gülzar Rzayeva, SSRİ xalq artisti Zeynəb Xanlarova, tanınmış alim Sara Aşurbəyli, tarix üzrə fəlsəfə doktoru keçmiş kafedra müdiri Firdovsiyyə Əhmədova və digərləri Azərbaycan xalqının fəxridirlər.

Çox təəssüflər olsun ki, tarixdə bəzi xoşagəlməz hadisələr təkrar olunur. SSRİ – nin dağılmasından ermənilər ustalıqla istifadə edərək, dinc quruculuq illərində əmin-amanlığı pozdular. Ərazilərimizin 20%-i Ermənistan tərəfindən işğala məruz qalmışdır. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması nəticəsində yüzlərlə qadınımız şəhid olmuşdur.

Salatın Əsgərova, Gültəkin Əsgərova kimi qadınlarımız ölümlərindən sonra Azərbaycan Milli Qəhrəmanı adına layiq görülmüşlər. Qaratel Hacımahmudova isə Qazaxda könüllü olaraq ana torpağın müdafiəsinə qalxmışdır.1993-cü ildə Aşağı Əskipara kəndində mühasirəyə düşmüş, güclü atışmada əsgərlərimizə kömək etmişdir. Sonda düşmən əlinə keçməmək üçün axırıncı gülləsini özünə sıxmışdır. Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Bütün bunlarla yanaşı, onu da qeyd etməliyik ki, məhz Ermənistanın təcavüzkarlığı nəticəsində 500 mindən çox qadın, 300 mindən çox uşaq qaçqın və məcburi köçkün düşmüşdür. Onlardan yüz minlərlə qadın və qızlarımız öz evini itirmiş, ailələri dağılmışdır. Bu gün qaçqın və məcburi köçkün, həmçinin şəhid ailəsi olan və müharibənin ağırlığını çiyinlərində daşıyan qadınlarımızın fədakarlığını xüsusi qeyd edirik.

Ordumuzun qazandığı uğurlar bütün millətimizi, xüsusilə qadınlarımızı sevindirmişdir. Onlar bütün dövrlərdə vətənə, xalqa, millətə və ailəyə böyük məhəbbət və sevgi ilə bağlıdırlar.

*Tədbirin sonunda məktəblilər Meyxoş Abdullanın "Əsir qadın" adlı kitabından müxtəlif bölümləri səhnələşdirirlər. Bunun üçün məktəblilər əvvəlcədən təyin olunmuş vaxtda kitabxananın oxu zalına əyləşərək tədbirdə iştirak edirlər. Kitabxanaçı sözü gedən mövzu haqqında məlumat verdikdən sonra bir neçə məktəbli iştirakçı qismində çıxış edərək Azərbaycan və dünya qadınlarının imza atdığı ilkləri sadalayırlar. Onlar ilk olaraq səhnəyə yaxınlaşıb ard-arda öz sözlərinə keçid alırlar.*

1.İlk qadın təyyarəçimiz – Leyla Məmmədbəyova
2.Azərbaycanın ilk şəhid qadın jurnalisti -Salatın Əsgərova
3.Azərbaycanda analitik kimya ixtisası üzrə ilk akademik qadın Rəfiqə Əliyeva.
4.Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinin sədri–Röya Tağıyeva
5.İncəsənət sahəsi üzrə elmi işi müdafiə edən ilk azərbaycanlı qadın–Nigar Usubova
6.Azərbaycanda ilk musiqi məktəbinin yaradıcısı - Kövsər Səfərəliyeva
7.Dünyanın ilk qadın pilotu türkiyəli Sabiha Gökçen
8.Kosmosa uçan ilk ana 1980-ci ildə Anna Li Fişer
9.Marqaret Burk-Uayt 1937-ci ildə Krisler binasının damından fotoqraf çəkməyə çalışan ilk qadın
10.1928-ci ildə Atlantikanı təyyarə ilə keçən ilk qadın Ameliya Erxartdır. Bu uçuşdan sonra o itkin düşüb.
11.Dünyanın ilk skeybordçu qadını 1976-cı ildə Ellen Oneal
12.1918-ci ildə Leola Kinq Amerikanın ilk qadın yol polisi
13.Mod Vaqner 1907-ci ildə bədəninə tatuaj edən ilk qadın olub.
14.1907-ci ildə ilk dəfə çimərlik paltarı ilə şəkil çəkdirən xanım Annet Kellerman
15.Berta Fon Zutner jurnalist və yazar Nobel mükafatını qazanan ilk qadın aktivistdir. O, eyni zamanda ilk qadın sülh aktivisti olaraq tarixə düşüb.

16.Ameliya Erxart 1932 – ci ildə Nyu-Fondlanddan İrlandiyaya təkbaşına uçaraq okeanı keçən ilk qadın olub.
17.Azərbaycanda rəsmən qeydə alınmış ilk siyasi təşkilat yaradan lider ( Milli Birlik Hərakatı) -Lalə Şövkət Hacıyeva
18.Dünya gözəli seçilən ilk müsəlman qadın – Sona Mehmandarova
19.Cənubi Azərbaycanda ilk qadın müxbir – Mədinə Gülgün
20.Azərbaycan səhnəsində çıxış edən ilk azərbaycanlı qadın, eyni zamanda səhnəmizin ilk qadın Ərəbzəngisi-Həqiqət Rzayeva
21.Professional rəssamlıq təhsili almış ilk azərbaycanlı qadın-Qeysər Kaşıyeva
22.Azərbaycanda ilk nazir qadın – Ayna Sultanova
23.Rusiya imperiyasındakı türklərin ilk qadın dərgisi "Aləmi-nisvan" ("Qadın dünyası") jurnalının redaktoru Şəfiqə Qaspiralı
24.Şərqdə opera yazan ilk qadın - Şəfiqə Axundova
25.İlk azərbaycanlı qadın biologiya elmləri doktoru Validə Tutayuq
26.Azərbaycanda, Qafqazda, həmçinin bütün Cənubi Avropada və Yaxın Şərqdə ilk qadın təyyarəçi – Leyla Məmmədbəyova
27.Azərbaycanın ilk qadın gəmi kapitanı - Zərifə Ləzgizadə
28.Ziba Qəniyeva - Bir döyüşdə 21, ümumilikdə 129 faşist məhv edən, 16 dəfə bacarığı sayəsində cəbhə xəttini yaran, ilk Azərbaycanlı snayper-kəşfiyyatçı xanım
29.Azərbaycanın ilk qadın kinorejissoru, ssenaristi – Qəmər Salamzadə. O, eyni zamanda, Şair Əliqulu Qəmküsarın qızıdır.
30.İlk azərbaycanlı hərbi şəfqət bacısı-Nigar Hüseyn Şıxlinskaya

*Məktəblilərin qısa məlumatından sonra müəyyən ardıcıllıqla səhnəyə tarix və ədəbiyyat müəllimləri yaxınlaşır. Dünyaya uğurlu ilkləri ilə imza atan qadınlar haqqında məlumat verməyə başlayırlar.*

*I Müəllim:* **İzmirdə Atatürklə tanış olan qız–İnan Afət**

Türk tarixçisi İnan Afət 1908-ci ildə Selanikdə anadan olmuşdur. Türk mədəniyyəti, qadın haqqları, Türkiyə Cümhuriyyəti dövrü haqqında tədqiqatlar aparmışdır.

Boluda millət vəkili olmuş, İsmayıl Haqqı Uzmayın qızıdır. İlk təhsilini 1920-ci ildə almış və müəllim kimi fəaliyyətə başlamışdır. Həmin il Mustafa Kamal Atatürklə tanış olan İnan Afət Atatürk tərəfindən Lozannaya dil öyrənməyə göndərilmişdir. İstanbul Fransız Qız Liseyində dil öyrənməyə davam edərək işini Ankara Musiqi Müəllimlər Məktəbində davam etdirmişdir. Bununla yanaşı, o, Ankara Qız Liseyində tarixdən dərs demişdir. 1935-ci ildə Cenevrə Universiteti Sosial və İqtisadi Biliklər fakültəsinin Yaxın və Modern çağlar Tarix şöbəsinə dəvət edilmişdir. Burada dilçi və doktorluq diplomunu almışdır. Dil və tarix–coğrafiya fakültəsinin tarix şöbəsində dosent və professor olmuşdur. Türk ocağı qurultayında Atatürkün təşviqi ilə Türk Tarixi Heyəti qurulmasını təklif edib. “Türk tarixinin ana xətləri”, “Türkiyə xalqının antropoloji xarakterləri və Türkiyə tarixi” , “Osmanlı imperatorluğunun İqtisadi tarixinə geniş bir baxış”, “Amerika xəritəsi 1513-1528”, “Əski Misir tarixi” və s. əsərlərin müəllifidir.

*II müəllim:* **İlkləri yaradan qadın–Kövsər Səfərəliyeva**

Kövsər xanım Səfərəliyeva Bülbül adına Orta İxtisas Musiqi təhsili ocağının ilk direktoru və Konservatoriyanın ilk təyin olunmuş professoru olmuşdur.Kövsər Səfərəliyeva ilk dəfə olaraq Konservatoriyanın nəzdində musiqi məktəbi yaratmışdır. O, Bakı milyonçusu Kamil bəyin ailəsində doğulmuşdur. Anası Qəmər xanım Ziyadxanova Gəncənin sonuncu xanı Cavad xanın nəticəsi idi. Kövsər xanım 1920-1930-cu illərdə Teatr texnikumunda, Bakı-Fəhlə Teatrında pianoçu konsertmeyster işləmişdir. 1932-ci ildə Konservatoriyanı bitirdikdən sonra bir ifaçı və pedaqoq kimi dərc olunmuş metodiki tövsiyyələri geniş

yayılmışdır. 1952-ci ilə qədər Bülbül adına orta ixtisas musiqi təhsili ocağının direktoru işləmiş Kövsər xanım sonra Konservatoriyanın fortepiano kafedrasının müdiri vəzifəsində çalışmışdır. Demək mümkündür ki, təxminən bizim bütün musiqiçilərimizin formalaşmasında həmin məktəbin böyük əhəmiyyəti olub. O, Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" kitabının redaktoru olmuşdur.

*III müəllim:* **Nazlı Tahirova-Naxçıvanda ilk qızlar məktəbinin yaradıcısı.** Nazlı Tahirova, Hacı Zeynalabdin Tağıyevin Qızlar Məktəbinin ilk məzunlarından olmuşdur. Həmin dövrün Mirzə Ələkbər Sabir, Nəcəf bəy Vəzirov, Həsən bəy Zərdabi, Əbdürrəhim bəy Haqverdiyev kimi aparıcı maarifçilərindən səkkiz il dərs alan Nazlı xanım bu illər ərzində elmin sirlərinə yiyələnmiş və müəllimlik peşəsinin parlaq nümayəndəsinə çevrilmişdir. Onun Bakıda təhsil almasından məmnun olan Mirzə Cəlil ona deyir: "Qızım, sən təhsil almısan, get Naxçıvana, qadınların maariflənməsinə çalış, cəsarətli ol, heç nədən qorxma!"

İrəvanda azərbaycanlı oğlanlar üçün yerli məktəbdə müsəlman qızlar üçün də ayrıca sinfin açılması Nazlı xanımın cəmiyyətdəki müsəlman qızlarını maarifləndirmək istiqamətində ilk cəhdi olub. Məktəbin müdiri Həşim bəy Nərimanovun dəstəyinə baxmayaraq, Nazlı xanım yenə də bu sinfi tikiş dərsləri adı altında gizlətməli olub. Lakin hətta bu da cəmiyyətin ən çılğın üzvlərinin çox sərt münasibətinə səbəb olub. İlk qızlar sinfi Nazlı xanımın burada işlədiyi dörd il ərzində bir sıra zorakı hücumlara məruz qalıb. Gənc müəlliməyə qarşı ciddi hədələr Nazlı xanımı məvacibinin təxminən yarısını mühafizəçilərə ödəməyə vadar etmişdi. Digər bir məşhur maarifçi qadın və Nazlı xanımın Tağıyev məktəbindən tanıdığı rəfiqəsi Ayna Sultanovanın köməyi ilə Naxçıvanda bir sıra qadın klubları, bunun ardınca isə yerli müəllimlər üçün hazırlıq

məktəbində qızlar üçün xüsusi bölmə və Ordubadda qızlar məktəbi təsis olundu. Həmçinin Nazlı xanım teatrın gənc rejissoru Rza Təhmasibin köməyi ilə məktəbdə şagirdlərdən ibarət dram dərnəyi də yaradır.

1921-ci ildə o, bütün kişi rollarını da qızların özlərinin oynadıqları, Azərbaycanın məşhur dram əsərlərinin əksəriyyətinin tamaşaya qoyulduğu Naxçıvanda ilk özfəaliyyət qızlar teatrının təsis olunmasına müvəffəq oldu.

Nazlı xanımın həyat yoldaşı Nəcəfqulu Nəcəfov onun maarifçilik ideyalarının həyata keçirilməsinə və hətta onun şəxsi mühafizəsinə dəstək göstərirdi. Gənc maarifçi cütlüyün prinsipiallığı öz müsbət nəticələrini verməyə başladı. Təhsil alan qızların sayı artmaqda idi. Məhz belə bir vaxtda Nazlı xanımın üzərinə digər bir ağır yük düşür. Azərbaycanın digər bir çox böyük maarifçi qadınlardan biri kimi Nazlı xanımın da başı üstündə repressiya tufanı dolaşıb. Məlumatlara görə, Nazlı Tahirova-Nəcəfova 1937-ci ildə repressiyaya məruz qalıb. Nazlı Nəcəfovanın həyat yoldaşı həbs edilir. Təxminən iyirmi ildən sonra gecikmiş bəraətə baxmayaraq, Nazlı xanım bir daha öz həyat yoldaşını görə bilmədi. Sovet İttifaqının İkinci Dünya Müharibəsinə qoşulmasından bir qədər sonra, 1942-ci ildə Nazlı Nəcəfova da "xalq düşməninin həyat yoldaşı" kimi Qazaxıstana sürgün edildi.

Qazaxıstanda olarkən Nazlı Nəcəfova ailəni saxlamaq üçün fəhlə briqadasında işləməklə yanaşı, özünün pedaqoji fəaliyyətini yenidən bərpa etdi. Sonralar o Azərbaycana qayıda bilsə də, ona doğma Naxçıvanda qalmağa icazə verilmədi. Həmin ərəfədə Nazlı xanım vaxt itirməmiş, Göyçay rayonunun iki böyük kənd məktəbində Azərbaycan və rus dilləri üzrə tanınmış müəllimələrdən birinə çevrilmişdir. Naxçıvana qayıtdıqdan sonra da müəllimlik fəaliyyətinə davam edən Nazlı xanım 1977-ci ildə doğulduğu torpaqda dünyasını dəyişmişdir.

*IV müəllim:* **İncəsənət sahəsi üzrə elmi işi müdafiə edən ilk azərbaycanlı qadın–Nigar Usubova**

İyirmi ilə yaxın Konservatoriyanın prorektoru işləmiş professor Nigar xanım Usubova Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbovun nəvəsidir. Onun anası Azərbaycanın ilk maarifpərvər qadınlarından olan Gövhər xanımdır. Gövhər xanım Qaibzadə Tiflisin qadın məktəbində dərs deyərək bütün həyatını Azərbaycan qadınının maariflənməsinə həsr etmişdir.

Tiflis Müsəlman Qadın Xeyriyyə Cəmiyyətində işləmiş, Azərbaycan Demokratik Respublikası dövründə mədəni-maarif işini qüvvətləndirmiş, qadın kursları təşkil etmişdir.Orada Hüseyn Cavid, Abdulla Şaiq dərs demişdir.

O, 1920-ci ildə ilk qadın seminariyasının təşkilatçılarından və M.F.Axundov adına kitabxananın yaradılmasında təşəbbüsçülərindən biri olmuş, sonradan bu kitabxanada ömrünün sonunadək Şərq şöbəsinin biblioqrafı işləmişdir.

Nigar xanımın formalaşmasında müəllimləri Siroviç, Baron, Brenner, Qoldenveyzerin böyük təsiri olmuşdur. İkinci kursda oxuyarkən o, 1944-cü ildə Tbilisidə keçirilən Zaqafqaziya dekadasında çıxış etmişdir.

Nigar xanım Usubova Azərbaycanda incəsənət sahəsi üzrə elmi işi müdafiə edən ilk qadındır. Atası İbrahim Usubov çar ordusunda general - mayor, 1920-ci ildə isə ADR - in diviziya komandiri olmuşdur. O, bolşeviklər tərəfindən Nargin adasında güllələnib. N.Usubova 1952-ci ildən 1970-ci ilədək Azərbaycan Dövlət Konservatoriyasında tədris və elmi işlər üzrə prorektor işləmiş, gənc musiqi kadrlarının yetişməsində görkəmli rol oynamışdır.

*V müəllim:* **1937-ci ilin 37 yaşlı qurbanı: İlk repressiya olunan Azərbaycan qadını.**

1937-ci ilin qurbanlarından olan Ümgülsüm Sadıqzadə 1900-cu ildə ruhani ailəsində anadan olmuşdur. Bakının Novxanı və

ətraf kəndlərində məşhur olan Əbdüləziz kişinin üçüncü qızı hələ uşaq yaşlarından ədəbiyyata, şeirə, sənətə meyl göstərirdi. Doqquz yaşlarından şeir yazmağa başlayan Ümgülsüm ilk təhsilini ata-anasından almışdır. Fars və türk dillərini, daha sonra isə klassik Azərbaycan və şərq ədəbiyyatını ona valideynləri öyrətmişdir.

Get-gedə genişlənən bilikləri və istedadı ona heca və əruz vəznində gözəl şeirlər yazdırırdı. Əlbəttə ki, onun bu istedadı tezliklə diqqət çəkdi. O, 1914-cü ildən etibarən artıq - "Açıq söz", "Birlik", "İqbal", "Yeni İqbal", "İstiqbal", "Azərbaycan", "Ədəbiyyat", "Şərq qadını" kimi mətbu orqanlarda çıxış etməyə başladı.

Milli ruhlu şeirləri ilə tez bir zamanda ədəbi aləmdə tanınmağa başlanılan gənc şairlərin istedadı və cəsarəti o vaxt mətbuatda qadın azadlıqları, hüquqları uğrunda mübarizəyə həsr olunmuş məqalələrlə çıxış edən Seyid Hüseynin də diqqətindən yan keçmədi. Seyid Hüseynlə də tanışlıqları da qəribə olmuşdur.

Ümgülsüm kimi gənc bir qızın yazıları ilə mətbuatdan tanış olan Seyid Hüseyndə onu tanımaq istəyi baş qaldırmışdı. Bir gün onların tanış olması üçün gözəl bir şərait yaranır. Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasının ilk dəfə Bakıda tamaşası zamanı Hüseyn Cavid onları tanış edir. Bu tanışlıq qısa zamanda səmimi sevgiyə çevrilir.1920-ci ildə evlənən cütlüyün dörd övladı dünyaya gəlir. Cığatay, Toğrul, Oqtay və Qumral. Gənc ailə artıq əsməkdə olan repressiya rüzgarını hiss edirdi. Onların oğlu Xalq rəssamı Oqtay Sadıqzadə xatirələrində qeyd edirdi ki, biz hər gün qapının döyüləcəyini gözləyirdik. Və o acı gün gəlib çatır.Ümgülsümün həyat yoldaşı Seyid Hüseyni 1937-ci il, iyulun 15-də Şüvəlandakı bağında həbs edirlər. Oğlu Toğrulun - "Ata, nə vaxt qayıdacaqsan" sualı cavabsız qalır. 1938-ci ilin yanvar ayında Seyid Hüseyn güllələnir.

Bundan sonra növbənin Ümmügülsümə çatması şübhəsiz ki, gözlənilən idi.1937-ci ilin noyabrın 2-də onu “xalq düşməninin ailəsi” kimi həbs edib Bayıl həbsxanasına salırlar. Beləcə, Ümgülsüm Sadıqzadə 37-nin 37 yaşlı repressiya qurbanı olur. Həm də ilk repressiya olunan Azərbaycan qadını.Ümgülsüm Sadıqzadə repressiya dalğasının günahsız “günahkarı”, “müqəssiri” idi. Ən böyük günahı isə pantürkist damğası ilə həbs olunmuş yazıçı Seyid Hüseynin həyat yoldaşı, Məmməd Əmin Rəsulzadənin ilə yaxın qohumu olması idi.

“Ey buzlu şimaldan qopan rüzgar! Toxunma qəlbimə, atəşi parlar”- deyən bir qadını susdurmaq, cəzalandırmaq rejimin bacaracağı “ən yaxşı iş” idi. Cəza olaraq ailəsindən uzaq salınması yetməzmiş kimi, artıq 1942-ci ildə 20 yaşına çatan oğlu Oqtayın “xalq düşməninin” xalq düşməninin oğlu” kimi sürgün olunması ana qəlbinə daha bir dağ basdı.

Oqtay sürgündən azad olunanda Ümgülsüm artıq dünyada yox idi. Kiçik oğlu Cığatay isə işçi batalyonundan xəstə qayıtmış və qısa zaman sonra vəfat etmişdir.

Repressiya onların nəslindən on üç qurban aldı. On üç yaşanmamış, yarımçıq qalmış həyat...

Repressiya illərinin sərt küləkləri sakitləşdi. Ölkədə siyasi vəziyyət dəyişdi, elə bir gün gəldi ki, çoxları kimi Seyid Hüseyn və Ümgülsüm xanım da bəraət aldı. Ancaq bu bəraət digər repressiya qurbanları kimi, onların da taleyini dəyişmədi...

Sürgündə olarkən ümidsizlik girdabında çırpınan bir nalə qopurdu sanki qadın qəlbindən . O nalə "Günəşim bir daha dogmayacaqmı ?” deyirdi.

Günəşim bir daha dogmayacaqmı?
Vəhşi qaranlığı bogmayacaqmı?
Kölgələri şəfəq qovmayacaqmı?
Sordum, ümidini qırma dedilər...

Ümidini qırmamağa çalışsa da, bir qadın qəlbi sonsuzadək əzaba dözə bilmir, inciyir, sızlayır, yara bağlayır, döyünməkdən yorulur və bir gün susur.

*VI müəllim:* ***Azərbaycanın ilk nazir qadını, "Şərq qadını" jurnalının ilk redaktoru Ayna Sultanova.***

Dövlət və ictimai xadim, Azərbaycanın ilk inqilabçı qadınlarından biri, Q.Musabəyovun bacısı, H.Sultanovun həyat yoldaşı.

O, Azərbaycan qadınları içərisindən çıxan ilk nazir qadın idi. Azərbaycan SSR Xalq Maarif Komissarı, sonra Xalq Ədliyyə Komissarı vəzifələrində işləmişdir.

Azərbaycan qadın azadlığı hərəkatında böyük rol oynayan Ayna Mahmud qızı (Musabəyova) Sultanova fəaliyyətinə 1912-ci ildə Bakıda "Müqəddəs Nina" gimnaziyasında dərs deməklə başlamışdır.

1917-1918-ci illərdə inqilabi hərəkata qoşulmuşdur. Bakı kommunasının süqutundan sonra Həştərxana getmiş, Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlıqda maarif şöbəsinin müdiri olmuşdur.

1919-cu ildə RSFRS Xalq Xarici İşlər Komissarlığında Yaxın Şərq şöbəsinin katibi işləmişdir. A (b) KP MK aparatında qadınlar şöbəsinin təlimatçısı, fəhlə və kəndli qadınlar şöbəsinin müdiri olmuşdur.

1930-1937-ci illərdə Azərbaycan SSR Xalq Maarif Komissarının müavini, Zaqafqaziya Həmkarlar İttifaqları Şurası mədəniyyət bölməsinin və Zaqafqaziya Ölkə Komitəsində qadınlar bölməsinin müdiri vəzifəsində çalışmışdır. Moskvada Qırmızı Professura İnstitutunda oxumuş, AK (b) P MK, ÜİK (b) Zaqafqaziya Ölkə Komitəsi, AK (b) P MİK, Rəyasət Heyətinin, Zaqafqaziya MİK- nin üzvü seçilmişdir. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur. Lakin 1937-ci il repressiya tufanı

onun da işıqlı həyatına söndürmüşdür.Azərbaycanın ilk inqilabçı qadınlarından biri Ayna Sultanova 1895-ci ildə Bakıda doğulub. O, eyni zamanda Azərbaycanda ilk qadın jurnalı olan "Şərq qadını" jurnalının ilk redaktorudur. Fəaliyyətinə 1912-ci ildə Bakıda "Müqəddəs Nina" gimnaziyasında dərs deməklə başlamışdır. 1917-1918-ci illərdə inqilabi hərəkata qoşulmuşdur. 1919-cu ildə RSFRS Xalq Xarici İşlər Komissarlığında Yaxın Şərq şöbəsinin katibi, qadınlar şöbəsinin təlimatçısı, fəhlə və kəndli qadınlar şöbəsinin müdiri olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunsa da 1937-ci il repressiya tufanı onun da işıqlı həyatına söndürmüşdür. 3 iyul 1938-ci ildə "xalq düşməni" adı ilə edam edilib.

*Azərbaycanın dünəninin, bu gününün mübariz qadınlarını gənc nəslə tanıtmaq məqsədi ilə kitabxanada keçirilən tədbirlərdən biri də "Azərbaycan xatunları" adlı* ***inşa yazı müsabiqəsidir.*** Müsabiqəyə bir neçə məktəb şagirdləri qoşula bilər. Azərbaycan qadının tərənnümü ilə bağlı müsabiqə münsiflər tərəfindən yoxlanılıb, mükafatlandırılır. Təyin olunmuş vaxtda iştirakçılar F.Köçərli adına kitabxananın oxu zalına dəvət olunurlar. Tədbiri açıq elan edən kitabxanaçı Şərqdə ilk qadın ictimai-siyasi və ədəbi-bədii jurnalı olan "Şərq qadını" jurnalı haqqında söhbət açmağa başlayır.

*Kitabxanaçı:* İlk nömrəsi 1923-cü ilin noyabr ayında Bakıda çıxmışdır. Jurnal Azərbaycanda, eləcə də bütün Şərq aləmində qadın azadlığı uğrunda mübarizə aparan, qadınlar arasında azadlıq ideyalarını geniş yayan ilk qadın jurnalı olmuşdur.

İlk redaktoru Ayna Sultanova idi. Uzun illər arzusunda olduğu "Şərq qadını" jurnalının nəşrini Cəlil Məmmədquluzadə böyük şadlıqla qarşılamış, "Molla Nəsrəddin" də dərc etdiyi "Şərq qadını" məqaləsində onu ürəkdən təbrik etmişdir. "Şərq qadını" jurnalında Cəlil Məmmədquluzadənin "Hünərli qadınlar" , "İki ər", "Bir balaca yanlışlıq" hekayələri, "Köhnə

dərdim", "Mirzə Fətəli Axundov və qadın məsələləri" , "Mirzə Fətəli Axundov dinlər haqqında" məqalələri dərc olunmuşdur. "Şərq qadını məsələsini" özünün "köhnə dərdi" adlandıran Mirzə Cəlil yazırdı ki, "bütün ömrümdə vurduğum qələmin çox hissəsi Şərq qadını məsələsi üstündə vurulub". Şərq qadını "şəriətin kəməndindən, müsəlmançılığın zəncirindən, hərəmxanaların zindanlarından, qara çarşabın zülmətindən" azad görmək istəyən ədib "Şərq qadını" jurnalının redaktoru Xavər xanımın "Ey Şərq qadınları, oxuyun, oxuyun, oxuyun! Əgər oxuyub savad və elm qazansanız, onda azadlığın qədrini bilərsiniz. Onda xoşbəxtlik yolunu taparsınız; oxumasanız, qaranlıqda qalacaqsınız, oxumasanız, bədbəxt olmanızdan savayı, uşaqlarınızı da bədbəxt edəcəksiniz" müraciətini alqışlayır və ona azad Şərq qadınını tərbiyə etməkdə, ona həqiqi yol göstərməkdə, öz vəzifəsini başa salmaqda, qadınlıq şərtlərini anlatmaqda, analıq borcunu və övlad tərbiyəsi məsələlərini yerinə yetirməkdə uğurlar arzulayırdı. Jurnal 1938-ci ilin fevralından başlayaraq "Azərbaycan qadını" adı altında çap olunmağa başlamışdır.

Kitabxanaçının dəyərli fikirlərindən sonra söz dil-ədəbiyyat müəlliminə verilir. Məktəb müəlliməsi Salona toplaşan şagirdlərə ***"Qızlar arasında dünyəvi təhsilin ilk qaranquşları və ya qaranlıqdan işığa gedən yol"*** adlı Azərbaycanda ilk dünyəvi qadın məktəbi haqqında məruzə ilə çıxış edir.

*Müəllim:* XIX əsrdən etibarən Azərbaycanda maarifçilik ideyaları təşəkkül tapmağa başladı. Böyük ziyalılarımız əllərindən gəldikdə maarifçiliyi ictimai həyatın bütün sahələrində yaymağa çalışırdılar. Belə sahələrdən ən ümdəsi təhsil idi.

XIX əsrdən başlayaraq dini təhsildən dünyəvi təhsilə keçid yeni və möhtəşəm addım idi. Həmin yeniliklə sıx əlaqədə olaraq qadın təhsilinin və bütövlükdə Azərbaycan qadınının

cəmiyyətdəki vəziyyətinə baxışların transformasiyası baş verdi. Etiraf etmək lazımdır ki, bu dövrdə müsəlman ölkələrində, o cümlədən Azərbaycanda qadın təhsili dövrün ab-havasına uyğun deyildir.

Gənc azərbaycanlı qızların məktəblərdə, mədrəsələrdə, ev şəraitində dinin əsaslarını, evdarlığın qaydalarını və s. öyrənmələri üçün tətbiq olunan ənənəvi üsullar artıq köhnəlmişdi. Qadın məktəblərinin köklü islahatına, onların daha mütərəqqi dünyəvi xarakter daşımasına ehtiyac vardı. Bu istiqamətdə ilk addımlar XIX əsrin birinci yarısından atılmağa başladı. Belə ki, 1848-ci ildə Şamaxıda müqəddəs Nina rus dünyəvi tədris müəssisəsi açıldı.Şamaxı qız məktəbi cəmi 11 il yaşamış, 1958-ci ilin mayın 30-da baş vermiş zəlzələ nəticəsində şəhərin böyük bir hissəsi dağıldığından fəaliyyəti dayandırılmış və Bakıya köçürülmüşdür.

XIX əsrdə Azərbaycan qız məktəblərinin açılması ilə bağlı cəhdlərin genişlənməsinə baxmayaraq, qadın təhsili ağır vəziyyətdə idi. Azərbaycanlı qızlar demək olar ki, düzgün təşkil edilmiş təhsildən məhrum idilər. Məsələn, mənbələrdən birində Bakıda – İçərişəhərdə 2 qadın müəllimənin yanında 25 qızın oxuması göstərilir. Belə qadınlar tərəfindən açılan məktəblər Şuşa, Şamaxı, Gəncə, Nuxa və başqa şəhərlərdə də olmuşdur. Belə məktəblərdən biri dövrünün maarifpərvər qadınlarından olan Gülbəyim Mir Mahmud qızı tərəfindən 1850-ci ildə Şamaxı şəhərində açılmışdır.

Dünyəvi təhsil verən “Gülbəyim məktəbi” dövrünə görə nadir məktəb idi. Onun səbəbkarı özünün bacarığı, qabiliyyəti və poetik yaradıcılığı ilə Şamaxıda fəaliyyət göstərmiş “Molla Pəri”, “Molla Tubnisə”, “Molla Xanım”, “Zeynəb xanım”, “Nisə xanım” və başqalarının məktəbləri qismən qızların müəyyən qədər təhsil almalarında rol oynamışdır.

Ən maraqlı "ev məktəbi" Gövhər Hacı Məcid qızı Cəfərzadə Şövqiyyənin şəhərin Şeyxünas küçəsində Əsbət xanımın mənzilində 20 nəfərdən artıq təhsil alan işıqlı maarif ocağı idi. Burada ana dili, hesab, coğrafiya, imla, rəsm, nəğmə və s. dərslər daha geniş tədris olunurdu. Gövhər Cəfərzadənin məktəbində yazı lövhəsi ilə yanaşı M.Ə.Sabirin və A.Səhhətin göndərdiyi qlobus, coğrafiya xəritələri və kitablar vardı. Məktəb ikisinifli idi. Birində kiçik, digərində böyük yaşlı qızlar oxuyurdu. "Gövhər məktəbi" 1918-ci ilə kimi fəaliyyət göstərdi.

Bu dövrdə Bakıda da məktəblər açılırdı. Belə məktəblərdən biri 1874-cü ildə Bakıda orta təhsil verən ilk Qadın Gimnaziyası fəaliyyət göstərməyə başladı. Lakin azərbaycanlıların bu məktəblərdə cəlb olunma səviyyəsi olduqca zəif idi. O illərin statistikası acı reallığı əks etdirirdi.

1897-ci ildə Müqəddəs Nina tədris müəssisəsində 320 nəfər təhsil alırdı ki, bunların da cəmi 3 nəfəri müsəlman idi. Yüzilliyin sonlarında Azərbaycanın bütün orta məktəblərində 1283 nəfər qız oxuyurdu ki, onların da yalnız 6-sı azərbaycanlı idi. Bunun əsas səbəbi rus məktəblərinə etimadsızlıq idi.

Bu dövrdə mütərəqqi ictimaiyyətin nümayəndələri qadın təhsilinin genişləndirilməsi və Azərbaycan qadınının ictimai həyata cəlb olunması uğrunda fəal çıxış etməyə başladılar. Ziyalılarımız təkcə dünyəvi qız məktəblərinin açılması məsələlərini qaldırmırdılar, eyni zamanda bu istiqamətdə müəyyən addımlar da atırdılar. Belə ki, görkəmli pedaqoq, maarifçi Həsən bəy Zərdabi 1896-cı il yanvarın 19 - da müsəlman qızlar üçün birsinifli məktəbin açılması xahişi ilə Bakı qubernatoruna müraciət etmişdir. Qubernator jandarm idarəsinin rəisinə H.Zərdabi haqqında polis məlumatlarını toplamağı tapşırmışdı.

Həsən bəyə verilən mənfi xasiyyətnamə işin nəticəsini həll etmişdi. Lakin tarix belə gətirdi ki, məhz həmin ildə

azərbaycanlı qızlar üçün dünyəvi məktəbin yaradılması ideyası meydana gəldi və Azərbaycan xalqının böyük oğlu Hacı Zeynalabdin Tağıyev bu ideyanı gerçəkləşdirdi.

Ömrünü Azərbaycanın ictimai-siyasi, mədəni həyatının inkişafına, tərəqqisinə həsr etmiş, millətinin inkişafı yolunda qüvvə və bacarığını əsirgəməmiş Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin deputatı, milli azadlıq hərəkatının üzvü Hacı Zeynalabdin Tağıyev millətinin azadlığı üçün xalqın maariflənməsi, mədəniyyəti, mətbuatın inkişafı, təhsili yolunda böyük, əvəzsiz işlər görmüşdür. ” Bunu mən etməsəm, kim edəcək, bu biçarə millətin gələcəyini mən düşünməyim, o düşünməsin, kim düşünsün? Alacağım zərbə nə qədər ağır olsa da, bu işə başlamalıyam”– deyə düşünən Tağıyev millətinin işıqlı gələcəyini yalnız maariflənmədə, mədəniyyətdə görürdü. Odur ki, min bir əziyyətlə olsa belə, öz hesabına Bakıda dünyəvi qızlar məktəbinin açılmasına çalışırdı. Tağıyev bu istəyinin reallaşması – məktəbin açılması üçün əvvəlcə, imperator III Aleksandra müraciət edir və mənfi cavab alır, lakin Tağıyev xoşməramlı niyyətindən əl çəkmir; 1895-ci ildə II Nikolayın tacqoyma mərasimində çarın xanımına bahalı hədiyyə bağışladığı zaman arzusunu dilə gətirir. Bu dəfə istəyi müsbət qarşılanır. Beləliklə, o, böyük çətinliklərdən, ağır mərhələlərdən sonra–1901-ci ildə Qızlar məktəbinin açılmasına nail olur.

Maarifçilik tariximizdə, dünyəvi təhsilin inkişafında, Azərbaycan qadınının təhsil almasında Tağıyevin Qızlar Gimnaziyanın böyük rolu olmuşdur. Məktəbi bitirən neçə-neçə azərbaycanlı qız millətimizin tərəqqisində yaxından iştirak edərək, cümhuriyyət fəallarından olmuşlar.

Rahilə Hacıbababəyova, Şəhrəbanı Şabanova, Şəfiqə Əfəndizadə, Məryəm Qembitskaya, Bakıda “Qadın Xeyriyyə Cəmiyyəti’ ni yaradan Liza Muxtarova və s. məhz belə qadınlardandır.

Cəmiyyətdə qadınının rolunu həmişə yüksək qiymətləndirən Şərq dünyasının ilk mesenatı Hacı Zeynalabdin Tağıyevin millət üçün açdığı işıqlı yolu Azərbaycan Xalq Cümhuriyyəti hökuməti davam etdirməklə böyük uğurlara imza atır.

İstər Cümhuriyyət dövründə, istərsə də, Cümhuriyyətdən sonra Azərbaycan mədəniyyətində baş verən dəyişikliklər teatrın inkişafına da təkan verməyə başladı.

Azərbaycan hökuməti xalqın milli mənlik şüurunun formalaşmasında teatrın roluna yüksək dəyər verirdi.

Bu baxımdan artıq Bakıda Hüseyn Ərəblinskinin rəhbərliyi ilə Azərbaycan Dövlət Teatrı fəaliyyətə başlamış, 1918–1920- ci illərdə bizə Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun", "Arşın mal alan" , "Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" , Namiq Kamalın "Akif bəy" yaxud "Namus" əsərləri tamaşaya qoyulmuşdur.

XX əsrin sonlarında Naxçıvanda pedaqoji mühit və pedaqoji fikir çox sürətlə inkişaf edir və yeni mütərəqqi məktəblər, fikirlər yaranmağa başlayırdı.

*Tədbirin sonunda inşa yazıları ilə fərqlənən iştirakçılar mükafatlandırılır.*

Azərbaycanın dünəninin, bu gününün mübariz qadınlarını gənc nəslə tanıtmaq məqsədi ilə kitabxanada keçirilən tədbirlərdən biri də *"Bəşəriyyətə işıq tutan qadınlar"* adlı **ədəbi-bədii gecədir.**

Aparıcılar ədəbi-bədii gecəyə keçid almaq üçün səhnəyə yaxınlaşırlar. İlk öncə Ulu öndər Heydər Əliyevə həsr olunmuş slayd verilir.

***I Aparıcı:*** Salam dəyərli qonaqlar, tədbir iştirakçıları, Azərbaycan qadınının şanlı keçmişini, uğurlu bu gününü, azad gələcəyini ictimaiyyətə çatdırmaq üçün ədəbi-bədii gecəmizə xoş gəlmisiniz. Biz bu gün uzaq keçmişimizə, dünənimizə, lap yaxın keçmişimizə qayıtmaq istəyirik sizlərlə.

Gəl, ana yurdumun qızı, gəlini,
İndi hünər vaxtı, qeyrət dəmidir.
Sən də əsirgəmə kömək əlini,
Hər sözün, söhbətin can məlhəmidir.

Adın şərəflidir sənin, ey qadın,
Dahilər anası çağrılır adın.

***II Aparıcı:*** "Dünyanı gözəllik xilas edəcək". Bu sözlər ilk dəfə Dostoyevskinin "İdiot" əsərində işlənmişdir. Gözəllik təkcə xarici görkəmlə bağlı deyil. Daxili saflıq, xoş niyyət və gözəl xarakter əvəzsiz gözəlliklərdəndir. Qadınlar yer üzünə bəxş olunmuş ən üstün varlıqlardır. Nə qədər zərif görünsələr də, bir o qədər güclü və dözümlüdürlər.

Hərbçi qadınlar da məhz belədir. Onlar bu peşənin çətinliyindən qorxmamış və əsl Azərbaycan qadınına xas bir şəkildə öz şücaətlərini nümayiş etdirmişlər, etdirirlər. Qadınlar Silahlı Qüvvələrdə tədris, tibb, kadr, kargüzarlıq, arxa cəbhə, kəşfiyyat, və digər sahələrdə hərbi xidmətdədirlər. Hazırda Silahlı Qüvvələrdə baş zabit hərbi rütbələrinə kimi yüksələ bilən qadın hərbi qulluqçular xidmət edir.

***I Aparıcı:*** Ağıllı bir qadın xəzinədir, ağıllı və gözəl qadın gücdür. Vətənimizdə ana və torpaq müqəddəs bir varlıq kimi bir tutulmuşdur. İstər hərbçi, istərsə də mülki qadınlar şəraitlərindən asılı olmayaraq, daim diqqət və qayğı ilə əhatələnirlər.

Ən mühüm təşkilatlarda, ən mötəbər toplantılarda, ölkə əhəmiyyətli saziş və müqavilələrdə və s. belə qadınlar kişilərlə bir sıradadır. Onlarla qadın şəhidlərimiz, qadın qazilərimiz var. Salatın Əsgərovanı necə xatırlayırıq? Vətəninin qorxmaz övladı olan, onun dərdinə yanan, Vətənə daha yaxşı olmaq üçün səngərdə əsgərlərlə çiyin-çiyinə xidmət edən, şəhid olan Salatın

Əsgərovanı. Onun həyat amalı özündən sonra gələn gənc nəslə ən gözəl örnək oldu. Bizim tarix boyu mərd, şücaətli, qəhrəman qadınlarımız çox olub. Mərdlikləri qədər də, siyasətləri, uzaqgörən ağılları ilə böyük şahları, imperiyaları heyrətləndiriblər. Fitnə, Nüşabə, Tomris, Sara Xatun...
Azərbaycan qadını dünənin, bu günün, sabahın güclü əsgər analarıdır. Azərbaycan anaları bölünməyən Vətənin, ölməz şəhidlərinin analarıdır. Torpaq üçün, ana üçün, ana vətən üçün ölərkən müqəddəsləşənlərin anasıdır... "Torpaq uğrunda ölən varsa, VƏTƏNDİR"...

***II Aparıcı:*** Dəyərli qonaqlar, tədbir iştirakçıları, sizlərə Azərbaycan Respublikasında qadın siyasəti haqqında söhbət açmaq fikrindəyik:

Azərbaycan qadınları XX əsrdə qısa müddət ərzində yüzilliklərdə bərabər inkişaf yolu keçmişdir. Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir.

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyi və dövlətçiliyini bərpa etdiyi zaman ölkədə müharibə vəziyyəti davam edirdi, iqtisadi böhran və digər sosial problemlər ictimai həyatda öz əksini tapmışdı.

Azərbaycan qadınları müstəqillik yolunda gedən mübarizələrin ön sıralarında idilər. 1988-ci ildən respublikada cərəyan edən mürəkkəb proseslərdə qadınlar kişilərlə bərabər iştirak edirdilər.

***I Aparıcı:*** Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli - mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır. Azərbaycanda baş verən siyasi, iqtisadi və mədəni proseslər qadınların maariflənməsi və ictimai həyatda daha fəal iştirak etməsinə güclü təkan verdi.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiya qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı.

1995-ci ildə Pekində keçirilən IV Ümumdünya Qadınlar konfransına hazırlıq dövründə Azərbaycanda fəaliyyət göstərən Qadınların Milli Komitəsi Pekin konfransına ümummilli məruzəni hazırlayıb təqdim etmişdir. Konfransdan sonra ümummilli fəaliyyət platformasına aid müzakirələr və konfranslar keçirilmişdir. Azərbaycan Respublikası 1995- ci il iyulun 30-da Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyasına qoşularaq öz üzərinə müvafiq öhdəliklər götürmüşdür.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövr qadınların qarşısında yeni məqsəd və vəzifələr qoydu. Bazar iqtisadiyyatının təşəkkül tapması, ölkəmizdə müxtəlif sahələrdə aparılan islahatlar, vətəndaş cəmiyyətinin formalaşmasında vətəndaşların fəallığının artırılması yolunda görülən işlər qadınların cəmiyyətdəki rolunun daha da gücləndirilməsini tələb edir.

***II Aparıcı:*** Azərbaycan Respublikasında qadın problemlərin həlli sahəsində görülən işlərin əsasını Heydər Əliyev qoymuşdur. Hələ 14 yanvar 1998 - ci ildə ulu öndərin 668 saylı fərmanı ilə Azərbaycan Respublikasında qadınlara dair dövlət siyasətinin bir daha mütəşəkkil şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

Qadın problemlərinin həlli zərurəti və gender bərabərliyinin təmin olunması Azərbaycan qadınlarının 1998-ci ildə keçirilmiş ilk qurultayında qeyd olundu. Respublikada cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərin gedişində Azərbaycan

qadınlarının daim milli dövlətçilik mövqeyindən çıxış etdiklərini nümayiş etdirən qurultay göstərdi ki, cəmiyyətdə qadınların rolunun artırılması yolunda hələ çox iş görülməlidir.

H. Əliyevin imzaladığı 14 yanvar 1998-ci il tarixli 727 saylı "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Sərəncama əsasən ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında qadınların rolunu artırmaq, Azərbaycan Respublikasının 1995-ci il iyunun 30-da qoşulduğu BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasının irəli gələn öhdəlikləri daha geniş miqyasda həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinə xüsusi tapşırıqlar verilmişdir.

***I Aparıcı:*** Heydər Əliyevin 6 mart 2000-ci il tarixli, 289 saylı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı ilə qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımı səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədilə Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təhsil olunmasının təmin edilməsi və respublikada qadınların vəziyyətinə dair beynəlxalq standartlara cavab verən statistik məlumatların hazırlanmasına qərar verilmişdir. Eyni zamanda, ulu öndərin qərarı ilə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini rəhbər tutmaqla qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılmasının, qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədilə proqramlarının hazırlanıb həyata keçirilməsi barədə tapşırıqlar verilmişdir.

Azərbaycan qadınlarının 1990-cı illərdə elm və mədəniyyət sahələrində əldə etdikləri nailiyyətlər onların böyük istedad və əməksevərliyinə tutarlı sübutdur. Azərbaycan qadınlarının I, II,

III qurultayları da Azərbaycan qadın hərəkatının inkişafında, onun daha mütəşəkkil forma almasında mühüm rol oynadı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ailə, qadın və uşaq problemlərinin həlli istiqamətində işləri davam etdirmiş və səyləri artırmışdır. Onun 6 fevral 2006-cı il tarixli, 361 saylı Fərmanı ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Həmin fərmana əsasən regionda birinci dəfə ailə, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində xüsusi dövlət qurumu yaradılmışdır. Bu isə həmin məsələlərin dövlətin xüsusi diqqətində olduğunu təsdiqləyir.

Ölkədə yeni iqtisadi münasibətlərə keçidlə əlaqədar əhalinin sosial iqtisadi inkişaf səviyyəsində baş vermiş əsaslı dəyişikliklər qadınların bu prosesdə rolunun artmasına səbəb olmuşdur. Qadınların işgüzar və intellektual potensialından səmərəli istifadə edilməsi əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, sahibkarlığın inkişafı kimi prioritet məqsədlərin reallaşması baxımından əhəmiyyətlidir.

Qadınların iqtisadi cəhətdən gücləndirilməsində sahibkarlığın inkişafı böyük rol oynayır. Sahibkarlığın inkişafı qadınları müstəqil etməklə yanaşı, onlarda özünə inam hissini artırır.

Qadınların iqtisadi və ictimai həyatda bərabər iştirakının təmin edilməsi onun özünütəsdiqidir. Bu baxımdan qadınların iqtisadi cəhətdən gücləndirilməsi, onun həm də iqtisadi asılılıqdan azad olması deməkdir.

Təhsili olmayan və iqtisadi cəhətdən asılı olan qadınlar daha çox zorakılığa məruz qalır. Belə qadınlar fiziki, psixoloji problemlərlə yanaşı, həm də iqtisadi problemlərlə üzləşirlər.

Qadınların həm iqtisadi cəhətdən güclü olması, həm də zorakılığa məruz qalmaması üçün hökümət sistemli şəkildə iş aparır. Bunun üçün ilk olaraq milli qanunvericilik bazası olmalıdır.

Azərbaycan Respublikasına 10 oktyabr 2006-cı ili "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir.

Xüsusilə qeyd etmək lazımdır ki, qadınlara qarşı zorakılıq hallarının qarşısının alınması sahəsində 22 noyabr 2010-cu il tarixində "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Qanun yaxın qohumluq münasibətlərindən birgə və ya əvvəllər birgəyaşayışdan sui - istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir. Qanuna əsasən yeni anlayışların tərifləri qanunvericilikdə verilmişdir ( məişət zorakılığı, məişət zorakılığından zərər çəkmiş şəxs, məişət zəminində fiziki, psixi zorakılıq, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi, məişət zəminində cinsi zorakılıq, məişət zorakılığının qarşısının alınması, yardım mərkəzləri, mühafizə orderi).

***II Aparıcı:*** Azərbaycanda hər bir ailənin sosial rifahını yüksəltmək, xüsusilə qadınların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün, Azərbaycan Respublikasında qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi sahəsinin dövlətin diqqəti altında olduğunun sübutu həmin

sahələr üzrə beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsidir.

Azərbaycan Respublikasında dövlət tərəfindən ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi məqsədilə mühüm tədbirlər görülüb, görülür və görüləcəkdir.

Azərbaycanda qadın sahibkarlığına həvəs günbəgün artsa da, bu sahədə müəyyən problemlər hələ də mövcuddur.Maliyyə vəsaitlərinin əldə olunmaması, onların düzgün yönəldilməsi istiqamətində çətinliklər işə mane olur. Həmçinin qadınları sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqdan çəkindirən bir sıra sosial-psixoloji amillər də vardır ki, bunların aradan qaldırılması da vacibdir. Buna görə də qadınlar peşə hazırlığı və hazırlıq kurslarına cəlb olunmalı, bazar iqtisadiyyatı və sahibkarlıq fəaliyyəti haqqında bilik və təcrübə qazanmaq üçün maarifləndirilməlidir. Bu və digər problemlərin aradan qaldırılması istiqamətində qadınlar üçün maarifləndirici tədbirlərin həyat keçirilməsi vacibdir.

Azərbaycan Respublikasında dövlət tərəfindən ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi məqsədilə mühüm tədbirlər görülüb, görülür və görüləcəkdir.

***I Aparıcı:*** Dəyərli tədbir iştirakçıları, biz sizlərin gözü ilə Azərbaycan qadınına nəzər salmaq istəyirik. Hər birimiz Azərbaycan qadını olub özümüzə bu sualı ünvanlamaq istəyirik.

***... Mən kiməm?..***

Bir insanam mən...Vəzifələrim var. Dinləyin, söyləyim sizə.

*Əvvəlcə bir anayam...*

Elə isə uşaqlarımı böyüdüb, boya-başa çatmasında əlimin əməyi, alnımın təri olmalıdır. Dünyaya gətirdiyim və ayaqlarına batan kiçik bir tikandan belə narahat olduğum körpələrimə yaxşı bir ana olmalıyam. Tikan nədir ki, çıxarırsınız keçib gedər.

Amma onların ruhuna batacaq tikanların qarşısını almalıyam mən!

Xəsis, paxıl, təkəbbürlü, riyakar olmasınlar deyə, əlimdən gələni də əsirgəməməliyəm.

Onların sağlamlıqlarını qoruyub xəstələnmələrindən qorxduğum kimi, onların qarşılarına çıxa biləcək təhlükələri də sezməliyəm.

Uşağım "nəzarətsiz" qalaraq televizordan vaxtından əvvəl çox şeydən xəbərdar olmasının qarşısını almalıyam. Gecələr şirin yuxuma haram qatıb üşüməsinlər deyə üstlərini örtdüyüm kimi, əllərimi açıb mənim qoruya bilmədiyim şeylərdən qorusun deyə Tanrıya dua etməliyəm...

***II Aparıcı: Bir övladam eyni zamanda...***

Məni südü ilə bəsləyən anamın, halal çörəyi ilə böyüdən atamın övladıyam. Elə isə mənim üçün saçlarını ağartmış, bellərini bükmüş bu iki insandan ehtiramımı əskik etməməliyəm. Qışqırıb bağırmaq nədir ki, " uf" belə söyləmədən qulluqlarında durmalıyam. Gülər üzlə, xoş sözlə könüllərini almağa, xeyir-dualarını qazanmağa çalışmalıyam. Bir gün qocalanda, xəstə və çarəsiz düşəndə onların nicatı olmalıyam mən.

***Bir evin xanımıyam mən...***

Sənəti nə olursa, olsun, bütün qadınlar hərəsi bir evin xanımıdır. Elə isə evimin nizam-intizamı da, səliqə - səhmanı da mənim üzərimdədir. Evimi cənnət guşələrindən birinə çevirməliyik. Ləziz yeməklər hazırlamalıyam. Qapını gülər üzlə, xoş sözlərlə açmalıyam. Yeri gələndə fədakarlıq etməyi də bacarmalıyam.

***Ailə büdcəsinin xəzinədarıyam mən...***

İsrafçılıq olmamalıdır mənim evimdə. Uşaqlarıma da qənaətcil olmağı öyrətməliyəm.

***I Aparıcı: Bir dostam mən...***

Dost dediyim insana can yoldaşı olmalıyam mən. Pis günündə onunla olmalı, yaxşı günündə ondan çox sevinməliyəm. Köməyə ehtiyacı olanda dadına ilk yetişən mən olmalıyam. Xəstələnəndə başının üstündə ilk mən durmalıyam. Qəlbim mənə açdığı sirlərə məzar olmalıdır. Ondan xəbərsiz ona dualar etməliyəm ürəkdən.

Qonaqlarına yaxşı ev sahibəsi, bir sənət sahibiyəmsə, öz sənətimin sərrafı olmalıyam mən...

Ağlımla, düşüncəmə, həyatda nə üçün yaşadığımı, vəzifələrimi bilməliyəm...

Qadınlarımız təkcə Azərbaycanın təhsil müəssisələrində deyil, dünyanın bir sıra nüfuzlu universitetlərində təhsil alır, ölkəmizin ictimai-siyasi həyatında aparıcı mövqedə dayanırlar. Azərbaycan qadını illərin ağır sınaqlarına sinə gərərək bu günə kimi özünü inkişaf etdirmiş və gələcəkdə bir çox uğurlara imza atacaq qüdrətə malikdir.

# Ədəbiyyat siyahısı

**Abdullah M. K.** Əsir qadın... : Roman. - Bakı : Çinar-Çap, 2006. - 216 s.

**Azərbaycan Respublikasının İnsan** Hüquqları üzrə Müvəkkili (Ombudsman). - Bakı : [s. n.], 2012. - 36 s. : rəngli foto. - (Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman)).

**Azərbaycan Uşaq və** Gənclərin Sülh Şəbəkəsi : Fotoalbom / dizayn: N. Qocayeva, T. Mehdiyev. - Bakı : Təhsil, 2011. - 48 s. : rəngli il.

**Cümhuriyyətə işıq saçan** qadınlar : araşdırma yazılar toplusu. - Bakı : Nurlar NPM, 2018. - 496 s.

**Əfqanlı N. Ə.** Azərbaycan xatınları. - Bakı : Şirvannəşr, 2004. - 116 s.

**Əsgərova R. (Hacı).** Gültəkin zirvəsi. - Bakı : Renessans, 2014. - 496 s.

**Etibar İ.** Gənc ailə üçün yaddaş . - Bakı : MBM ; Bakı : Şirvannəşr, 2009; 2006. - 75 s.

**Gültəkin** : İki zirvə, and yeri. Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərova haqqında ədəbi-bədii toplu. - Bakı : Qanun, 2006. - 352 s.

**Həsənova M.** Heydər Əliyev və Azərbaycan dövlətçiliyində qadın məsələsi. - Bakı : Elm, 2001. - 80 s.

**Hikmət** : Elmi araşdırmalar toplusu. №18. - Bakı : Nafta - Press, 2011. - 167 s.

**Hüseynli A. V (Hacı).** Azərbaycanın qadın hökmdarları : Tarixi ədəbiyyat. - Bakı : Nərgiz, 2012. - 100 s. : il., rəngli foto - (Məktəb kitabxanası).

**Hüseynova H. Azərbaycan respublikasında qadın siyasəti** // İnsan hüquqları institutunun tərəfdaşları : Məqalələr toplusu. - Bakı : Elm və Təhsil, 2013. – S. 31 - 38.

**Qadın hüquqları üzrə** bələdçi : hüquq ədəbiyyatı. - Bakı : Hüquq ədəbiyyatı, 2012. - 200 s. : rəngli il. ; 24 sm el. opt. disк (CD-ROM).

**Qadın və cəmiyyət**. - Bakı : [s. n.], 2007. - 207 s.

**Qaracayev C. Y.** Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikası Qanunun kommentariyası. - Bakı : "Nat" MMC, 2011. - 132 s.

**Məmmədli N. M.** Zəngulə - Bakı : İdeal-Print, 2010. - 264 s.

**Məmmədova Ş.** Anaların fəryadı. - Bakı : Gənclik, 2006. - 508 s.

**Miri E.** İslamda qadın-kişi bərabəırliyi. - Bakı : Nurlar, 2006. - 64 s.

**Monitorinq** : Rəmzi məhkəmə "janrında". - Bakı : [s. n.], 2004. - 84 s.

**Mütəhhəri M. (Ustad Şəhid).** Qadın və kişi münasibətlərində əxlaq : İslam və Qərb dünyasında. - Bakı : Nurlar NPM, 2011. - 88 s. - (Parlayan günəş).

**Süleymanova E. T.** Ailə planlaşdırılmasında ictimai xidmətin təşkili üzrə. - Bakı : "RS" Poliqraf MMC, 2015. - 108 s.

**Vəzirova L. Qadın azadlığı məsələsi** // Yusif Vəzir Çəmənzəminlinin publisistikası. - Bakı : Nərgiz, 2003. – S. 38-50.

**Yerfi R.** Qadın düşərgəsi : povestlər . - Bakı : Kitab Klubu, 2010. - 152 s. - (Sınaq Nüsxəsi Layihəsi).

**Əbədiyyətin məşəl aparanı - Qadın**

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.

Sifariş: 11
Çapa imzalanmışdır: 29.01.2021
Tirajı:100
Pulsuz